QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 044 (6244) 10 mart 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Əziz qadınlar!

Beynəlxalq Qadınlar Günü münasibətilə sizin hamınızı səmimi qəlbdən təbrik...

Bax 2

# "İki qardaş ölkə daim bir-birinin yanındadır"

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətini qəbul edib



Bax 2

## "Israel HaYom" qəzeti: Azərbaycan Prezidenti Administrasiyasının rəsmi nümayəndəsi tibbi yardım üçün İsrailə təşəkkür edib



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib: "Biz İsrail hakimlərinə, İsrailə çox minnətdarıq. Bu, bizim dostluğumuzun və əməkdaşlığın sübutudur". AZƏRTAC xəbər verir ki, israilli jurnalist Din Şmuel Elmas bu haqda İsrailin aparıcı...

Bax 3

## Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov kollektivə təqdim olunub



Martın 9-da Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov kollektivə təqdim olunub. Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini Əli Əhmədov çıxış edərək, Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII Qurultayında partiyanın sədri, Prezident İlham Əliyevin proqram xarakterli çıxışından bəhs...

Bax 3

## Armenianreport: "Putinin pudeli hakimiyyətə can atır"

Bax 14

"Koçaryan növbəti dəfə bizə sübut etdi ki, o, Rusiyanın adamı və marionetidir və Ermənistanda ali hakimiyyəti caynağına keçirmək üçün o, məhz Kremldən yardım almaq niyyətindədir". SİA xəbər verir ki, bu barədə...



## "France 24" televiziya kanalı Qarabağda aparılan quruculuq işlərinə dair reportaj yayımlayıb



"France 24" televiziya kanalında "Dağlıq Qarabağa bələdçi ilə səfər: mina təmizləməsi, tikinti və kommunikasiya" adlı reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycan hökuməti tərəfindən onlarla jurnalistdən ibarət qrup üçün İkinci Qarabağ müharibəsində azad edilmiş ərazilərimizə bələdçi ilə turun təşkilindən söz açılıb. "France 24" kanalının ölkəmizdəki xüsusi müxbirinin də turda iştirak etdiyi bildirilir. Qeyd edilir ki, kommunikasiyanın məqsədi tur vasitəsilə bölgənin inkişafında hökumətin iradəsini...

Bax 7

## Liviyalı diplomat: "Qarabağdakı erməni vəhşiliyinin misli-bərabəri yoxdur"



Bax 7

## 10 Mart Milli Teatr Günüdür




Bax 11

## Şuşanın su təchizatı ilə bağlı asılılığı aradan qaldırılıb



Bax 11

# "İki qardaş ölkə daim bir-birinin yanındadır"

*Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:**

-Xoş gəlmisiniz.

Akif Çağatay Kılıç: Xoş gördük cənab Prezident, necəsiniz?

Prezident İlham Əliyev: Çox sağ olun. Şadam sizi görməyimə.

Akif Çağatay Kılıç: Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik.

Prezident İlham Əliyev: Sizin səfəriniz, əlbəttə, böyük önəm daşıyır. Çünki parlamentlərarası əlaqələrimiz də çox uğurla inkişaf edir. Həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir yerdəyik, bir-birimizi dəstəkləyirik. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək, bildiyiniz kimi, bütün Azərbaycan xalqını çox məmnun etdi. Bu, təbiidir. Çünki iki qardaş ölkə daim bir-birinin yanındadır. Əziz qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın ilk saatlardan bizə verdiyi siyasi və mənəvi dəstək, əlbəttə ki, bizi çox ruhlandırdı. Eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin rəhbəri hörmətli Mustafa Şentop və parlament üzvləri də bizə həmrəylik və dəstək göstərmişlər. Yəni, bu müharibə günləri bir daha göstərdi ki, bizim xalqlarımız nə qədər bir-birinə bağlıdır, nə qədər bir-birinə sevgi ilə və hörmətlə yanaşır. Bu yaxınlarda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə də əziz qardaşım hörmətli Prezident Azərbaycan haqqında, bizim Zəfərimiz haqqında çox gözəl sözlər demişdir. Bildiyiniz kimi, bu Zəfəri qeyd etmək üçün ötən ilin sonunda Bakıda hərbi parad keçirilmişdir.

Onu da bildirməliyəm ki, Türkiyənin mətbuatı, bütün ictimai qurumları bu müharibə dövründə Azərbaycana çox böyük dəstək göstərdilər. Biz bunu çox yüksək qiymətləndiririk. Bu gün bizim bölgəmizdə yeni vəziyyət yaranmışdır, yeni reallıq yaradılmışdır. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı, artıq həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq və bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik, xüsusilə nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması çox önəmli məsələlərdən biridir. Əminəm ki, birgə səylərlə buna da nail olacağıq. Sizi bir daha ürəkdən salamlayıram. Xoş gəlmisiniz.

XXX

Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıç:

-Hörmətli cənab Prezident, əvvəlcə mən də hörmətli Prezidentimizin Sizə salam və sevgilərini çatdırmaq istəyirəm. Həmçinin Məclis sədrimizin də Sizə sevgi, salam və ehtiramları var. Təbii ki, biz Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının üzvləri olaraq, Sizin böyük Zəfərinizdən həm çox məmnunluq duyuruq, həm də bu mənada birlik və bərabərliyimizi bir daha göstərmək üçün Sizi ziyarət etmək istədik. Bizi qəbul etdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk. Cənab Prezident, Türkiyə Böyük Millət Məclisində Sizin bu uğurunuzu, bu liderliyinizi və Siz də dediyiniz kimi, bölgənin tarixində dönüş nöqtəsi olan bu mübarizənizi dəstəkləyən dörd siyasi partiyanın, - bilirsiniz, Türkiyə Böyük Millət Məclisi bu barədə bəyanat qəbul etdi, - təmsilçiləri olaraq buradayıq.

XXX

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına və parlamentinin sədrinə çatdırmağı xahiş etdi.



# Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

***Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:***

"Əziz qadınlar!

Beynəlxalq Qadınlar Günü münasibətilə sizin hamınızı səmimi qəlbdən təbrik edirəm! Siz zəriflik, sədaqət, xeyirxahlıq, mənəvi saflıq, gözəllik və ülvilik rəmzi olan "qadın" sözünün ucalığını ləyaqətlə qoruyursunuz.

Vətənimiz üçün layiqli oğullar tərbiyə etmiş analara ən xoş arzularımı çatdırıram! Vətən müharibəsi günlərində siz misli görünməmiş mətanət, fədakarlıq və möhkəm iradə nümayiş etdirdiniz. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların analarının qarşısında baş əyirəm.

Sizin hər birinizə möhkəm cansağlığı və ailə səadəti arzulayıram! Uca Tanrı sizi və sizin doğmalarınızı qorusun!".




# Xorvatiya qəzeti Azərbaycanda mövcud olan tolerant mühitdən yazır

**Xorvatiyanın "Večernji list" qəzetində bu dərginin jurnalisti Hassan Haydar Diabın "Azərbaycandakı katoliklər Burgenland xorvatının himayəsindədir" sərlövhəli məqaləsi dərc edilib. Belə ki, jurnalist Azərbaycana səfəri çərçivəsində Bakıda yerləşən Müqəddəs Məryəm Ana katolik kilsəsini ziyarət edib və yepiskop Vladimir Feketedən müsahibə alıb. Söhbət əsnasında məlum olub ki, əslən slovak olan V.Feketenin əcdadlarından biri xorvatdır.**

Müəllif məqalənin əvvəlində ölkəmizdə yaşayan insanların dini etiqadları və katolisizm barədə məlumat verir. Qeyd olunur ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra katolik icması ölkəmizdə yenidən fəaliyyətini bərpa edib, ümummilli lider Heydər Əliyevin göstərişi ilə Bakıda katolik kilsəsinin inşası üçün ərazi ayrılıb.

H.Diab Azərbaycanda mövcud olan tolerant mühit, dinlər arasında heç bir ayrı-seçkiliyin olmaması barədə geniş məlumat verir. Həmçinin bəzi dairələr tərəfindən Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin dini zəmində baş verməsi iddiasının irəli sürməsinin əsassız olduğunu qeyd edir. Eyni zamanda, müəllif 2002-ci ildə Katolik Kilsəsinin rəhbəri II İohan Pavelin və 2016-cı ildə Papa Fransiskin ölkəmizə səfərləri haqqında oxuculara məlumat verir.

# İndoneziya zəlzələnin fəsadlarının aradan qaldırılması üçün göstərilən humanitar yardıma görə Azərbaycana minnətdarlıq edib

**Yanvarın 15-də İndoneziyanın Sulavesi adasında baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə İndoneziyanın Qırmızı Xaç Cəmiyyəti vasitəsilə bu ölkəyə 50 min ABŞ dolları məbləğində humanitar yardım göstərilib.**



Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, İndoneziyanın Qırmızı Xaç Cəmiyyəti tərəfindən göstərilmiş humanitar yardıma görə başda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev olmaqla, Azərbaycan xalqına minnətdarlığı ifadə olunub.

Xatırladaq ki, yanvarın 15-də Sulavesi adasında baş vermiş 6,2 bal gücündə zəlzələ 27 nəfərin ölümünə, 600 nəfərdən çox insanın yaralanmasına səbəb olub. Təbii fəlakət nəticəsində 100-ə yaxın evə ziyan dəyib, 10 yaşayış evi isə tamamilə dağılıb.

# “Israel HaYom” qəzeti: Azərbaycan Prezidenti Administrasiyasının rəsmi nümayəndəsi tibbi yardım üçün İsrailə təşəkkür edib

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib: “Biz İsrail həkimlərinə, İsrailə çox minnətdarıq. Bu, bizim dostluğumuzun və əməkdaşlığın sübutudur”.**



AZƏRTAC xəbər verir ki, israilli jurnalist Din Şmuel Elmas bu haqda İsrailin aparıcı ivritdilli nəşri olan “Israel HaYom” qəzetində yazıb. Nəşrdə İsrailin Bakıdakı səfiri Corc Dikin sözləri də sitat gətirilib. Səfir deyib: “Bu, bizim aramızda mövcud olan dostluğun ruhunu əks etdirir”.

Məqalənin müəllifi qeyd edir ki, ötən həftənin bazar ertəsi günü səfir Corc Dik başda olmaqla, İsrailin Azərbaycandakı səfirliyi tibbi yardım göstərilməsi üzrə fövqəladə əməliyyat həyata keçirib. Dağlıq Qarabağda Vətən müharibəsi zamanı yaralanmış Azərbaycan əsgərlərinə və zabitlərinə ən azı 150 əməliyyat aparılması və onların müalicəsinin həyata keçirilməsi məqsədilə israilli oftalmoloqların və plastik cərrahların Azərbaycana səfərləri təşkil edilib.

Cümə günü Azərbaycan hökumətində yüksəkvəzifəli şəxslərdən biri, Prezidentin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz “Twitter” səhifəsində İsrail həkimlərinə minnətdarlığını və hörmətini bildirib. Hikmət Hacıyev öz “Twitter” səhifəsində yazıb: “Bu, çox əlamətdar hadisədir. Bizim yaralı əsgərlərimizə və zabitlərimizə real tibbi yardım göstərmiş tibbi personala və İsrail səfirliyinə dərin minnətdarlığımızı bildiririk. Bu, ölkələrimiz arasında dostluğun sübutu və təcəssümüdür”.

Hikmət Hacıyev öz “tvit”ini yəhudi mənbələrindən bir sitatla bitirib: “Bir insanı xilas edən şəxs dünyanı xilas edir”.

Məqalənin müəllifi qeyd edir ki, İsrailin Azərbaycandakı səfiri Corc Dik dünən öz “Twitter” səhifəsində belə bir mesaj yerləşdirib: “Bu, İsrail ilə Azərbaycan arasında dostluğun ruhunu əks etdirir. Biz bu insanların möhkəm sağlamlığını, özünə əminlik hissini və öz Vətənində - Azərbaycanda normal və layiqli yaşamaq qabiliyyətini qaytarmaq istəyirik”.

# Heydər Əliyev Fondu və Vatikan arasında əməkdaşlıq yeni mərhələdə

Azərbaycanda tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində dini abidələrdə, ziyarətgahlarda və tikililərdə təmir-bərpa işləri aparılır, sərgilər təşkil olunur. Bakının Mərdəkan qəsəbəsində XVI əsrə aid Pir Həsən ziyarətgahında, Buzovna qəsəbəsindəki Cümə məscidində, Binə qəsəbəsindəki Möhsün Səlim məscidində əsaslı təmir və bərpa işləri aparılmış, Gəncədəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuşdur. Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur. Azərbaycanla yanaşı, dünya ölkələrində də belə layihələr həyata keçirilib. Strasburq kafedralının XIV əsrə aid olan beş pəncərəsi bərpa edilmişdir. Rusiya Federasiyasının Həştərxan şəhərində, Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsi ucaldılmışdır. Bu siyahını kifayət qədər davam etdirmək olar.



Vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, məbədin fasadında keramik panno yerləşdirilmişdir. Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpa edilməsi isə təbii ki, böyük hadisədir və bu hadisə tarix boyu yaşayacaq. Vatikan rəsmiləri Fondun bu sahədə gördüyü işləri çox yüksək qiymətləndiriblər. Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi tədbirlər təkcə katakombaların bərpası ilə bitmir.





Fond, eyni zamanda, Vatikan Apostol kitabxanasında olan Azərbaycana aid əlyazmaların bərpasına da töhfə verib. Xatırladaq ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Sebastian katakombalarının bərpası işlərinə 2016-cı ildə başlanılıb. 2018-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva katakombaların açılışı mərasimində iştirak edib. Muzeydə Heydər Əliyev Fondunun dəstəyi ilə restavrasiya olunmuş 150 sarkofaq və ya onların fraqmentlərindən ibarət eksponatlar nümayiş olunur. Yer altında dörd mərtəbədən ibarət katakombada isə Fondun dəstəyi ilə restavrasiya olunmuş, eramızın IV əsrinə aid sarkofaq və barelyeflər yerləşir. İncildən səhnələrin yer aldığı barelyef erkən xristianlıq dövrü üçün mühüm abidələrdən sayılır. Bildiyimiz kimi, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Vatikanda bu istiqamətdə əməkdaşlığın növbəti mərhələsinin icrasına başlanılıb. Belə ki, Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin daxil olduğu nümayəndə heyəti Vatikanda səfər zamanı Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Müqəddəs Arxeologiya Şurası arasında Müqəddəs Komodilya katakombalarının bərpasına dair yeni əməkdaşlıq müqaviləsi imzalanıb. Bu onu göstərir ki, Heydər Əliyev Fondu və Vatikan arasında mövcud əməkdaşlıq artıq növbəti mərhələyə qədəm qoyur.

Yeni əməkdaşlıq razılaşması Roma şəhərindəki katakombalardan birinin ictimaiyyət üçün açılması və bu yolla Roma şəhərinin mədəni zənginliyinə daha bir incinin əlavə olunması ilə nəticələnəcək. 2025-ci ildə Roma şəhərində Roma-katolik kilsəsi üçün xüsusi əhəmiyyət daşıyan və hər 25 ildən bir qeyd edilən “Müqəddəs il” yubiley tədbirləri keçiriləcək və “əbədi şəhər”ə dünyanın hər tərəfindən turist və zəvvarlar axışacaq. Beləliklə, Heydər Əliyev Fondu dünya mədəni, tarixi və dini irsinin qorunması, mədəniyyətlər və dinlərarası əlaqələrin inkişafına xidmət edən növbəti layihəsinə imza atmış oldu. Əlbəttə ki, Vatikan ilə Azərbaycan arasında əlaqələr ölkəmizin dövlətlərarası qurduğu dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinin göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***





## Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov kollektivə təqdim olunub

Martın 9-da Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov kollektivə təqdim olunub. Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini Əli Əhmədov çıxış edərək, Yeni Azərbaycan Partiyasının martın 5-də keçrilən VII Qurultayında partiyanın sədri, Prezident İlham Əliyevin proqram xarakterli çıxışından bəhs edərək, partiyanın strukturunda da ciddi dəyişikliklər olunduğunu diqqətə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev çıxışında ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı islahatlar həyata keçirildiyini və bu islahatların siyasi sferanı da əhatə etdiyini diqqətə catdırıb. Ədalət Vəliyevin sözlərinə görə, Yeni Azərbaycan Partiyasının VII Qurultayında qəbul olunmuş qərarlar da bu islahatların tərkib hissəsi hesab olunmalıdır.

YAP Mərkəzi Aparatının rəhbəri Tahir Budaqovun fəaliyyətinin Azərbaycan ictimaiyyətinə yaxşı tanış olduğunu deyən Ədalət Vəliyev qeyd edib ki, Tahir Budaqov uzun illərdir ki, həm siyasi, həm də dövlət orqanlarında uğurla fəaliyyət göstərir.

Çıxış edən YAP-ın sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov göstərilən böyük etimada görə Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevə təşəkkürünü bildirib və bu etimadı layiqincə doğrultmağa çalışacağını, partiyanın qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

## Bu gün Lavrovla Çavuşoğlu görüşəcək



Martın 10-da Rusiyanın xarici işlər naziri Sergey Lavrov Qətərdə türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşəcək. Bu barədə Rusiya XİN bildirib. Qeyd edək ki, S.Lavrov Yaxın Şərq ölkələrinə səfərlər keçirəcək. Qətərdə rusiyalı nazir əmir Tamim bin Həməd əl-Tani və xarici işlər naziri Məhəmməd bin Əbdül əl-Tani ilə görüşəcək.

# Azərbaycanın ictimai-siyasi həyatında növbəti tarixi hadisə - YAP-nın VII qurultayı



**Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, müstəqil Azərbaycanımızın firavan gələcəyinin dünəni, bu günü və gələcəyi naminə öz fəaliyyətini göstərən siyasi partiyadır. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".**

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlər toxunaraq Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir. Bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik".

### "Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq"

"Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq",-deyən dövlət başçısı bildirib ki, verdiyimiz sözə əmlə etdik: "Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

Azərbaycan Prezidenti onu da söyləyib ki, ötən son 3 il ərzində prezident və parlament seçkiləri keçirilmişdir: "Prezident və parlament seçkilərinin ölkəmizin müasir həyatında xüsusi yeri vardır. Xüsusilə nəzərə alsaq ki, prezident və parlament seçkilərində ölkəmizdə gedən islahatlar daha bir mərhələyə qədəm qoydu və bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir. Biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, bu islahatların çox böyük əhəmiyyəti var. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bizim təşəbbüslərimizin, islahatlarımızın böyük rolu vardır".

"Prezident seçkilərindən sonra bəyan etdiyim proqram icra olunur və biz ardıcıllıqla öz hədəflərimizə çatırıq. Prezident seçkilərindən sonra mən ərazi bütövlüyümüzün bərpasını qarşıya birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq. Eyni zamanda, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də qarşımıza açıq-aydın hədəflər qoyuldu",-deyən dövlət başçısı ardıcıllıqla və məqsədyönlü şəkildə bu hədəflərə çatıldığının vurğulayıb.

### "Bu gün Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin zərurəti məhz bu səbəblərdən doğur"

Prezident İlham Əliyev bu gün Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin zərurətinin, məhz əvvəldə söylənilən səbəblərdən doğulduğunun deyib: "Yeni bir vəziyyət yaranmışdır, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqları yaradan ölkəyik. Bundan əvvəlki dövrlərdə də bizim təşəbbüslərimizlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatlarını şərtləndirdi. Bizim uğurlu enerji siyasətimiz, nəqliyyat siyasətimiz nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxardı, eyni zamanda, bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı. Bu gün bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır. Bu, istər-istəməz həmin ölkələr arasında, hətta əvvəlki dövrlərdə bir-biri ilə o qədər isti münasibətləri olmayan ölkələr arasında da əməkdaşlığı labüd edir. Ona görə son vaxtlar bizim siyasətimizlə bağlı dünyada gedən düzgün təhlillər və bizim fəaliyyətimizə verilən yüksək qiymət həqiqəti tam əks etdirir. İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaratmışdır. Bölgədə yeni əməkdaşlıq imkanları yaranmışdır. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılmışdır və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb".

Dövlət başçısı onu da bildirib ki, bütün işlər ardıcıllıqla həyata keçirilib, son 17 il ərzində qarşıya qoyulan hədəflər düzgün müəyyən edilib, bu hədəflərə çatmaqla yanaşı qarşıda yeni hədəflərin həyata keçirilməsi üçün daha böyük fəallıq nümayiş etdirmək lazımıdır: "Beləliklə, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi - ərazi bütövlüyümüzün bərpasını təmin etdik". "Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi",-deyən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlərin önəmli olduğunun söyləyib: "Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Heydər Əliyevin fəaliyyətinin nəticəsində 1982-ci ildə isə qabaqcıl yerlərdə idi. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi. O vaxt onun gördüyü işlər həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələrini böyük dərəcədə inkişaf etdirdi, canlandırdı və insanlar o dövrü xatırlayırlar. Bir də ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır".

Azərbaycan Prezidenti digər önəmli amilin - Heydər Əliyevin Naxçıvan dövrü ilə bağlı olduğunu söyləyib: "Çünki o vaxt Naxçıvan həm Ermənistanın hücumlarına məruz qalırdı, eyni zamanda, o vaxtkı Azərbaycan rəhbərliyinin əsassız hücumlarına, təqiblərinə məruz qalırdı. Faktiki olaraq blokada şəraitindəki respublika işıqsız, qazsız, susuz, heç bir maddi imkanı olmadan yaşayırdı və Heydər Əliyev amili burada əsas rol oynayırdı. Ermənilər nə qədər cəhd etsələr də, Naxçıvanda öz istəklərinə nail ola bilmədilər. Halbuki Qarabağdan sonra onların növbəti hücum hədəfi Naxçıvan idi. Heydər Əliyev və onun ətrafında birləşmiş insanlar Naxçıvanı qoruya bildilər, düşməni yerinə oturtdular və orada sərhəddə gedən şiddətli döyüşlərdə qalib gəldilər".

### "Eyni zamanda, müstəqilliklə bağlı Ulu Öndərin birmənalı, qətiyyətli addımları xalq tərəfindən yüksək qiymətləndirilirdi"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı onu da söyləyib ki, xalq Heydər Əliyevə inanırdı və Onun ətrafında sıx birləşmişdi: "Eyni zamanda, müstəqilliklə bağlı Ulu Öndərin birmənalı, qətiyyətli addımları xalq tərəfindən yüksək qiymətləndirilirdi. O vaxt Azərbaycan Respublikasında Sovet İttifaqının saxlanmasına dair referendum keçirilmişdi və bu referendumun nəticələri kobudcasına saxtalaşdırılmışdı. Sanki Azərbaycan xalqı müstəqillik istəmir, sanki Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşamaq istəyir. Bu, absurd idi. Çünki 20 Yanvar hadisələri hələ təzə-təzə baş vermişdi, Azərbaycana qarşı edilən ədalətsizlik, Dağlıq Qarabağdan və ondan sonra ətraf bölgələrdən azərbaycanlıların qovulması, Ermənistandan azərbaycanlıların qovulması - bütün bunlar Azərbaycan xalqının qəlbində yara kimi qalmışdı".

"Belə olan vəziyyətdə hansı vətənpərvər insan müstəqilliyin əleyhinə səs verə bilər? Yəni, tam saxtalaşdırılmışdır,-deyən dövlət başçısı bildirib ki, ancaq Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev referendumun keçirilməsinə imkan verməmişdir: "Bu, böyük cəsarət, qəhrəmanlıq tələb edən addım idi. Eyni zamanda, o vaxt Bakıda sovet Azərbaycanının bayrağı altında oturan rəhbərlik sanki o keçmişdən elə ikiəlli yapışmışdı ki, onu buraxmaq istəmirdi. Ancaq Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi bayraq kimi təsis edildi və Sovet İttifaqının dağılmasına hələ çox vaxt var idi. Yəni, bütün bu faktorlar, bütün bu amillər Heydər Əliyevin xalq qarşısında olan hörmətini daha da artırmışdır".

### "Yeni Azərbaycan Partiyasının yaradılması zərurət idi"

Dövlət başçısı Yeni Azərbaycan Partiyasının yaradılmasının zərurət olduğunu bildirib: "O vaxt, yenə də deyirəm, cəsarətli, qorxmaz insanlar açıq-aydın görürdülər ki, təzə-təzə müstəqilliyə qovuşmuş gənc ölkəmiz böyük fəlakətlə üz-üzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter almışdır.

Ardı Səh. 5

# Azərbaycanın ictimai-siyasi həyatında növbəti tarixi hadisə - YAP-nın VII qurultayı

Əvvəli Səh. 4

Hərbi məğlubiyyət, eyni zamanda, daxili böhranla tamamlanır. Ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqil yaşamasını sual altına qoymuşdur. O günləri, o ayları təsəvvür etmək üçün, bu gün Ermənistanda baş verən hadisələrə nəzər yetirmək kifayətdir",-deyən Prezident belə olan vəziyyətdə ölkə necə inkişaf edə bilərdi: "Bizim torpaqlarımız əldən gedirdi, ərazi bütövlüyümüz pozulmuşdu, Ermənistandan 300 mindən çox azərbaycanlı qovulmuşdu, Dağlıq Qarabağdan bütün azərbaycanlılar qovulmuşdu, Şuşa və Laçın işğal altına düşmüşdü, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaranmışdı, qaçqınlar, köçkünlər yaranmışdı və gələcək üçün, bu vəziyyəti dəyişdirmək üçün heç bir əsas yox idi. Kim bu vəziyyəti dəyişdirəcəkdi?"

### "Hakimiyyətə qanunsuz yollarla gəlmiş AXC-Müsavat cütlüyü ölkəni talayırdı, dağıdırdı, müharibə gedə-gedə Ermənistana benzin satırdı"

Azərbaycan Prezidenti onu da söyləyib ki, o vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü ancaq öz maraqlarını güdürdü: "Hakimiyyətə gəlmiş təsadüfi adamlar eynən Ermənistanda 2018-ci ildə hakimiyyətə gələn insanlarla, elə bil ki, əkiz qardaşdırlar. Təcrübəsiz, biliksiz, mədəniyyətsiz, səriştəsiz, qorxaq, fərari, daha hansı epitet qaldı. İstənilən mənfi epitet bunlara yaraşır. Bax, bunlar idi o vaxt Azərbaycanı idarə edənlər. Belə insanlara xalq tərəfindən inam ola bilərdimi? Ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi. Köhnə partnomenklatura demək olar ki, tamamilə iflic vəziyyətə düşmüşdür, hakimiyyətə qanunsuz yollarla gəlmiş AXC-Müsavat cütlüyü ölkəni talayırdı, dağıdırdı, müharibə gedə-gedə Ermənistana benzin satırdı",-deyən dövlət başçısı, həmçinin vurğulayıb ki, bu AXC-Müsavat cütlüyü bütün vəzifələrə rüşvət müqabilində insanlar təyin edirdilər, təsadüfi insanlar, küçədən keçənlər idi vəzifədə olanlar: "Baxın, indi mən bunu dəfələrlə demişəm, kim idarə edirdi Azərbaycanı, hansı əxlaq, hansı bilik sahibləri".

### "Azərbaycan xalqı buna dözə bilərdimi? Əlbəttə ki, yox. Məhz bu idi Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurəti"

"Eynən 2018-ci ildə Ermənistanda hakimiyyətə gəlmiş adamlar kimi, onlar da ölkəni dağıdırdılar və nəticə etibarilə bizi gətirib uçurum kənarına qoydular. Azərbaycan xalqı buna dözə bilərdimi? Əlbəttə ki, yox. Məhz bu idi Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurəti",-deyən Prezident onu da öildirib ki, belə bir məqamda o vaxt cəsarət və milli düşüncə göstərmiş, baxmayaraq ki, repressiyalara məruz qalmış vətənpərvər insanlar - məşhur "91-lər" Ulu Öndərə müraciət ediblər: "Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt qanun yox idi. Kim nə istəyirdi, onu edirdi. Hüquq-mühafizə orqanları insanları əsassız həbs edirdilər, döyürdülər, canlı efirdə döyürdülər, söyürdülər. Tamamilə anarxiya, xaos, özbaşınalıq hökm sürürdü. Kimi istəyirdilər öldürürdülər, şikəst edirdilər, həbs edirdilər. Bax, bu idi o vaxt mövcud olan mənzərə. Senzuranı tətbiq etmişdir, guya ki, demokratik Xalq Cəbhəsi. Senzura o vaxt onlar tərəfindən tətbiq edilmişdir. O vaxt onlara qarşı bir söz deyəni tutub əzirdilər, döyürdülər, öldürürdülər. Nə üçün bəs Yeni Azərbaycan Partiyasının təsis qurultayı Naxçıvanda keçirildi? Bakıda imkan vermədilər. Heydər Əliyev fenomenindən o qədər qorxurdular, öz cılız mahiyyətlərini özləri o qədər dərk edirdilər, bilirdilər ki, əgər bu qurultay Bakıda keçirilsə, bunların hakimiyyətinə son qoyulacaq. Çünki onlara xalq tərəfindən olan nifrət artıq bütün həddini keçmişdi".

### "Mən bu gün bir daha o vaxt bu milli maraqları hər şeydən üstün tutan "91-lər"i qeyd etmək istəyirəm, onların fəaliyyətini yüksək qiymətləndirirəm"

Azərbaycan Prezidenti İlham Əliyev o vaxt bu milli maraqları hər şeydən üstün tutan "91-lər"in fəaliyyətini yüksək qiymətləndirərək bildirib ki, bu gün də onların bir çoxu bizim sıramızdadır: "Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular". Dövlət başçısı 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdığını söylədi: "Ondan sonra heç bir il keçməmiş - 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başladı. Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox. Halbuki 1991-ci ilin 18 oktyabrını biz Müstəqillik Günü kimi qeyd edirik. Ancaq hər kəs bilməlidir ki, o, bizdən asılı olan proseslər deyildi. Azərbaycan hətta gecikmişdi. Artıq bir çox keçmiş müttəfiq respublikalar öz müstəqilliyini elan etmişdilər. Sovet İttifaqı demək olar ki, dağılırdı. Artıq parçalanma prosesləri gedirdi. Nəyi gözləyirdilər 18 oktyabra qədər? Ondan əvvəl müstəqilliyi elan etmək olmazdımı? Əlbəttə, olardı. Ona görə bizim əsl müstəqillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ona qədər müstəqillik sözdə var idi, amma faktiki olaraq yox idi. Azərbaycan müstəqil siyasət apara bilirdi? Yox! Öz hüdudlarını qoruya bilirdi? Yox! Beynəlxalq aləmdə öz sözünü deyə bilirdi? Yox! Bəs bu, nə müstəqillikdir?"

### "Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi"

Dövlət başçısı onu da vurğulayıb ki, əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi: "Biz bu tarixi bilməliyik, bilirik və bundan sonra öz fəaliyyətimizi bu möhkəm təməl üzərində quracağıq, necə ki, bu vaxta qədər qurmuşuq. 1993-2003-cü illər həlledici illər olmuşdur. Dövlətçiliyin əsasları qoyulmuşdur. 20 Yanvar faciəsinə siyasi qiymət verilmişdir. Nə üçün Xalq Cəbhəsi-Müsavat cütlüyü 20 Yanvar faciəsinə siyasi qiymət verməmişdir? Onların bir il vaxtı var idi. Nə üçün? Çünki onların da əli Azərbaycan xalqının qanına batmışdır. Onlar da 20 Yanvar faciəsini ört-basdır etmək istəyirdilər. Yalnız Heydər Əliyev 20 Yanvar faciəsinə siyasi qiymət verdi. Konstitusiya yalnız Heydər Əliyevin dövründə qəbul edildi. Xalq Cəbhəsi-Müsavat cütlüyü tərəfindən qoyulan senzura məhz onun göstərişi ilə onun tərəfindən ləğv edildi. Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı. Biz beynəlxalq təcriddən çıxdıq. Azərbaycan artıq hörmətli və hörmətə layiq olan ölkə kimi tanınmağa başlamışdır. Böyük investisiyalar cəlb edildi ölkəmizə. Ordu quruculuğuna start verildi. Bizim nizami ordumuz yox idi. Kadrların yetişdirilməsi ilə bağlı önəmli addımlar atıldı. O kadrlar ki, bu gün də ölkəmizin müxtəlif sahələrində öz töhfələrini verirlər".

### "Təbii ki, 2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs vermişdir, mənə etimad göstərmişdir"

Dövlət başçısı onu da bildirib ki, 2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs vermişdir, mənə etimad göstərmişdir: "Çünki mən demişdim ki, əgər xalq etimad göstərərsə, Ulu Öndərin siyasətinə sadiq qalacağam. O əsas amillərdən biri idi. Həyat onu göstərdi ki, biz son 17 il ərzində doğrudan da tarixi uğurlara imza atdıq. Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır. Hər şey göz qabağındadır. Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər".

"Mən demişəm, indi Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimiz zamandır. Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın",-deyən Prezident onu da bildirib ki, mən demişdim, onları müalicə etdirmək lazımdır. Onlar xəstələniblər, koronavirusdan da betər bir virus hopub bunların canına: "O millətçi və irqçi, azərbaycanafob, islamofob erməni siyasətçiləri, bax, buna gətirib çıxardılar. Təkcə ona görə yox ki, biz haqlı idik. Biz mənəvi üstünlüyü ona görə əldə etdik ki, bütün bu illər ərzində bir amalla yaşamışıq: ərazi bütövlüyümüzün bərpa edilməsi, düşmənlərin torpaqlarımızdan qovulması".

"Bax, yenə də sözümə sadiqəm. İndi düşmən özü çıxmayıb, biz onu rədd eləmişik, qovmuşuq, eyni zamanda, əməkdaşlığa hazırıq. Azərbaycan-Ermənistan-Rusiya Baş nazirlərinin müavinləri artıq neçə dəfə görüşüblər. Nə barədə danışırlar? Əməkdaşlıq barəsində. Biz əməkdaşlığın əleyhinəyikmi? Yox! İndi Ermənistan əməkdaşlıqdan boyun qaçırır. İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək",-deyən Azərbaycan Prezidenti bildirib ki, onları qovmuşuq torpaqlarımızdan, bütün istədiyimizə nail olacağıq.

### "İndi Ermənistan təcrid edilmiş vəziyyətdədir, biz isə bütün qonşularla çox səmərəli dostluq, mehriban qonşuluq əsasında münasibətlər qurduq və bu da bir hazırlıq idi"

"İndi Ermənistan təcrid edilmiş vəziyyətdədir, biz isə bütün qonşularla çox səmərəli dostluq, mehriban qonşuluq əsasında münasibətlər qurduq və bu da bir hazırlıq idi. Mən bunu açıq demək istəyirəm, əgər bu sahədə hazırlıq işləri aparılmasaydı, İkinci Qarabağ müharibəsində çətinliklər ola bilərdi. Ermənistan isə özünü təcrid etdi. Yəni, biz onları regional layihələrdən, neft-qaz layihələrindən təcrid etdik, onların iqtisadiyyatını çökdürdük və bunu qürur hissi ilə deyə bilərik, bunu hər bir müstəqil iqtisadi ekspert deyə bilər ki, bunun əsas amili bizik, Ermənistanı qeyri-müəyyən, qeyri-sabit və gələcəyi olmayan ölkə kimi təqdim etdik",-deyən dövlət başçısı bildirdi ki, bu gün Ermənistan iqtisadi çətinliklərlə yanaşı oradan köç daha da geniş vüsət almışdır: "Demoqrafik problemlər yarandı və bu, özlüyündə iqtisadi bazarın daralmasına gətirib çıxardı. İqtisadi bazar dar olanda heç kim investisiya qoymayacaq. Orada nəyə investisiya qoyacaq, əgər orada adam yoxdursa, pul yoxdursa? Sən bu investisiyanın gərək sonra pulunu çıxarasan, gərək bazar olsun investisiyaların pulunu çıxarmaq üçün. Bizdə isə əksinə. İnvestisiyalar böyük axınla gəlirdi, əhali artırdı, 10 milyona çatmışıq və baxın, sovet dövründə bizim əhalimiz 7 milyon idi, Ermənistan əhalisi 3,5 milyon. İndi Ermənistan əhalisi 1,8, bizim əhalimiz isə 10 milyondur".

### "Bu gün bir ölkə yoxdur ki, bizim o ölkə ilə hansısa problemimiz olsun"

"Mən xarici siyasətlə bağlı çıxışlarımda demişdim ki, prioritetlər arasında qonşu ölkələrlə bizim əməkdaşlığımız xüsusi yerə malikdir,-deyən Azərbaycan Prezidenti bildirib ki, bu gün bir ölkə yoxdur ki, bizim o ölkə ilə hansısa problemimiz olsun: "Biz Avropa İttifaqı ilə sıx əlaqələr qurmuşuq. Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb. Mən indi heç kimin haqqında danışmaq istəmirəm, amma bunu deməliyəm. "Şərq tərəfdaşlığı" ölkələrindən hansı bir ölkə Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb? Yox. Onlar assosiasiya sazişi imzalayıblar, o sazişə də mən baxmışam. O, faktiki olaraq saziş deyil, o, təlimat kitabçasıdır, bilirsiniz, təlimat kitabçası. O ölkələrə təlimat verilir, bunu belə etməlisən, bunu elə etməlisən. Mən isə ondan imtina etdim. Dedim ki, bizə belə təlimat lazım deyil. Biz özümüz bilirik nə etmək lazımdır. Bu gün biz Avropa İttifaqı ilə bərabərhüquqlu saziş üzərində işləyirik və sazişin 90 faizi razılaşdırılıb. Əlbəttə ki, pandemiya və müharibə bu işlərə bir az müdaxilə etdi. Yaxın gələcəkdə bu danışıqlar bərpa ediləcək. Ona görə biz bu sahədə də uğurlar əldə etdik. Ona görə bizim digər ölkələrlə xarici siyasətimiz çoxşaxəlidir".

Ardı Səh. 6

# Azərbaycanın ictimai-siyasi həyatında növbəti tarixi hadisə - YAP-nın VII qurultayı

Əvvəli Səh. 5

### "44 günlük müharibədə və bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir"

Dövlət başçısı çıxışı zamanı onu da bildirib ki, ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir: "Bütün bu hazırlıq istiqamətləri nəticədə bir nöqtədə birləşdi - 44 günlük müharibədə və bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır. İndi biz yeni dövrə qədəm qoyuruq. Bu dövrlə bağlı mən bundan sonra da öz fikirlərimi bildirəcəyəm. Çünki konseptual nöqteyi-nəzərdən bütün baxışlar yerindədir. Hər şeyi açıq-aydın görürük. Amma, əlbəttə ki, həyat və xüsusilə Qarabağın bərpası ilə bağlı məsələlər bizim planlarımıza müxtəlif korrektələr edəcək. Bu da təbiidir. Ancaq konseptual nöqteyi-nəzərdən gələcəklə bağlı bəzi fikirlərimi bölüşmək istərdim".

"Mən bu gün qarşıda duran bəzi vəzifələr barədə öz fikirlərimi həm partiya üzvləri ilə, həm Azərbaycan xalqı ilə bölüşməklə, əlbəttə ki, bütün siyasi qüvvələri, bütün ictimaiyyəti geniş diskussiyaya çağırıram",-deyən Azərbaycan Prezidenti onu da söyləyib ki, buna ehtiyac var: "Çünki bir daha demək istəyirəm ki, biz yeni dövrə qədəm qoyduq. Bölgədə və ölkəmizdə tamamilə yeni geosiyasi vəziyyətdir. Ona görə biz bütün addımlarımızı düzgün atmalıyıq ki, daim qələbə qazanaq, Azərbaycan bayrağı daim yüksəklərdə olsun".

### "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır"

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayının ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunun deyib: "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var. Qeyd olunduğu kimi, biz gələn il, partiyamızın 30 illik yubileyini keçirəcəyik. Hesab edirəm ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir. Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın". Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyaya qoşulan partiyaların uğurlu addım olduğunu bildirib: "Mən buna şübhə etmirəm. Bizim dost partiyalarımızın bu gün partiyamıza qoşulması da bunu göstərir. Bu da çox önəmli, əlamətdar hadisədir. Bu da siyasi sistemimizin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addımdır və eyni zamanda, göstərir ki, partiyamızın həm məramı, həm proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir. Əminəm ki, bir neçə partiyanın Yeni Azərbaycan Partiyası ilə birləşməsi partiyamızı gücləndirəcək. Bu partiyaların üzvlərini biz qəbul edirik, onlara bizim ailəyə "Xoş gəlmisiniz!" deyirik və birgə fəaliyyətlə bağlı əlbəttə ki, əlavə addımlar da atılacaqdır"

### "İdarə heyətinə tapşırıq verirəm ki, 3 ay ərzində partiyamızın yeni proqramı hazırlansın və təqdim edilsin"

Dövlət başçısı, həmçinin partiyanın yeni proqramının hazırlanması tapşırığını da verib: "Bütün bunları nəzərə alaraq hesab edirəm ki, partiyamızın yeni proqramı da hazırlanmalıdır. Bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir. İdarə heyətinə tapşırıq verirəm ki, 3 ay ərzində partiyamızın yeni proqramı hazırlansın və təqdim edilsin. Qurultayımızın keçirilməsi bir daha demək istəyirəm ki, ölkəmizin həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq. Partiyamızın çoxminli üzvləri xalqımızın bütün təbəqələrini təmsil edirlər".

"Görüləcək işlərə qayıtdıqda, mən xüsusilə şəhid ailələrinə göstərilən dəstəyi qeyd etmək istərdim. Partiyamızın fəalları bu sahədə də fəal olmalıdırlar, dövlət öz üzərinə düşən vəzifəni icra edir",-deyən dövlət başçısı söyləyib ki, müharibədən 4 ay keçməsinə baxmayaraq, artıq 1500 şəhid ailəsi və müharibə əlili üçün mənzillərin təqdim edilməsi mərasimi də keçirilmişdir: "Keçən il şəhid ailələrinə verilən mənzillərin sayı 1572 idi, bu, rekord göstəricidir. Bu il isə 3 minə yaxın şəhid ailəsi və müharibə əlili yeni mənzillər alacaq. Bildirməliyəm ki, beləliklə, Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda növbədə dayanan, o cümlədən ilk növbədə Birinci Qarabağ müharibəsinin şəhid ailələrinin nümayəndələrinə tam şəkildə mənzillər, evlər veriləcəkdir. Növbəti illər ərzində bu gün növbədə dayanan Birinci və İkinci Qarabağ müharibəsinin şəhidlərinin yaxınlarına mənzillər veriləcəkdir. Ancaq şəhid ailələrimizə qayğımız mənzillərin, yaxud da ki, avtomobillərin verilməsi ilə bitmir. Yeni Azərbaycan Partiyasının nümayəndələri bu kateqoriyadan olan insanlara daim qayğı, diqqət göstərməlidirlər".

"Həmçinin biz Böyük Qayıdış proqramı icra olunmağa başlayanda məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması prosesinə də start verəcəyik və burada da Yeni Azərbaycan Partiyasının üzvləri, fəallar ön planda olmalıdırlar, öz rolunu oynamalıdırlar",- deyən Prezident bildirib ki, bu proses müəyyən zaman kəsiyində baş verəcək: "Biz bir gündə, yaxud da ki, bir il, ya iki ildə dağılmış bütün şəhər və kəndlərimizi bərpa edə bilmərik. Ona görə burada ardıcıllıq, əlbəttə ki, gözləniləcək. Bu ardıcıllıqla bağlı, əlbəttə, hesab edirəm ki, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan məcburi köçkünlərə üstünlük verilməlidir. Çünki 300 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilib, onların məişət şəraiti yaxşıdır. Ancaq hələ də uşaq bağçalarında, yataqxanalarda və digər yararsız, yəni uyğunlaşdırılmış binalarda köçkünlər yaşayır və burada da sosial ədalətin gözlənilməsi üçün Yeni Azərbaycan Partiyasının fəalları öz rolunu oynamalıdırlar".

Dövlət başçısı, həmçinin bildirib ki, gənc nəslin tərbiyə edilməsi hər bir dövlət üçün xüsusi əhəmiyyət daşıyan məsələdir: "Əgər gənc nəsil tərbiyə edilməsə, əgər gənc nəslə ümumbəşəri dəyərlər aşılanmasa, o zaman gələcəkdə problemlər qaçılmazdır. Çünki biz bu gün də görürük ki, nəsillər dəyişdikcə bəzi ölkələrdə radikal qüvvələr ya hakimiyyətə gəlir, ya da ki, ildən-ilə, seçkilərdən-seçkilərə onlara verilən səslərin sayı çoxalır".

"Siyasi partiyalarda fəaliyyət göstərən gənc nəslə elə təlimat verilməlidir ki, onlar gələcək həyata hazırlıqlı olsunlar, onlar ölkəmizin müstəqilliyini hər şeydən üstün tutsunlar",-söyləyən Prezident onu da bildirib ki, hamılıqla, o cümlədən Yeni Azərbaycan Partiyasında Veteranlar Şurasına tapşırıqlarını da verib: "Bu Veteranlar Şurasının tərkibində tanınmış hörmətli insanlar fəaliyyət göstərəcəklər. Mən onlardan da xahiş edirəm ki, onlar da çox fəal olsunlar, bölgələrdə olsunlar, gənc nəslin nümayəndələri ilə görüşsünlər. Ölkə haqqında həqiqətləri gənc nəsil bilmir, hansı ki, 1991-1992-ci illəri görməyiblər. Bu haqda məlumat verilməlidir ki, onlar bilsinlər, biz nəyin bahasına bugünkü reallıqları əldə etmişik. Vətən müharibəsi ilə bağlı, postmüharibə dövrü ilə bağlı məlumatlar verilməli, bütün bunlar izah edilməlidir. Çünki xaricdən, oradan-burdan yalan, saxta məlumatlar gəlir və bəzi hallarda gənc insanlar buna inanırlar. Məhz o hesabat da bunun üzərində qurulur və gənc nəslimizin milli ruhda, milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi ən başlıca vəzifələrdən biridir. Ənənələrimiz, dəyərlərimiz, yaşayış tərzimiz - bütün bunlar bizim sərvətimizdir, biz bunu itirə bilmərik və itirməməliyik. Ona görə gənc nəslin tərbiyə edilməsi çox önəmli məsələdir və burada milli-mənəvi dəyərlər ön plandadır. Digər önəmli məsələ isə odur ki, - Yeni Azərbaycan Partiyası həmişə bu sahədə fəal olub, bizim dövlət siyasətimiz də bu sahədə birmənalıdır, - Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir ailə kimi yaşayırlar və bundan sonra da bir ailə kimi yaşayacaqlar. Bu, bizim böyük sərvətimizdir. Mən də müxtəlif tədbirlərdə demişəm ki, bizim dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir".

"Biz bu il müstəqilliyimizin 30 illiyini qeyd edəcəyik. Mən giriş sözümdə bu məsələ ilə bağlı öz fikirlərimi dedim. Bir daha demək istəyirəm ki, 30 ildən sonra biz bu günü qürur hissi ilə qarşılayırıq. Biz müstəqilliyimizin 30 illiyini Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd edəcəyik. Müstəqilliyimizin möhkəmləndirilməsi işində bundan sonra da fəaliyyət göstəriləcəkdir. Bu, əbədi prosesdir",-deyən Prezident onu da bildirib ki, müstəqilliyin bundan sonra da möhkəmləndirilməsi işində partiyamız və bütün cəmiyyətimiz fəal olmalıdır: "Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq.

Beləliklə, bir çox hallarda dediyim kimi, bugünkü qurultayı da bu sözlərlə yekunlaşdırmaq istərdim: "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

***RƏFİQƏ KAMALQIZI***

# Azər Badamov: "6 siyasi partiyanın YAP-a birləşməsi..."

"Yeni Azərbaycan Partiyasının VII qurultayında partiyamızın Sədri siyasi fəaliyyətimizin yeni reallıqlara uyğun davam etdirilməsində yeni vəzifələr və prioritetlər müəyyənləşdirmişdir. Yəni, YAP-ın fəaliyyətində yeni dönəm başlamışdır. Əvvəlcə qeyd etmək istəyirəm ki, ölkəmizdə aparılan geniş islahatlar YAP-da da öz əksini tapdı. Bu, həm struktur islahatları, həm də İdarə Heyətinin gəncləşdirilməsi ilə yadda qaldı". Bunu SİA-ya millət vəkili Azər Badamov deyib.

Onun sözlərinə görə, qurultayda partiyamızın Sədri cənab İlham Əliyev YAP Veteranlar Şurasının yaradılması təklifini irəli sürdü və bu təklif qurultay nümayəndələri tərəfindən yekdilliklə qəbul olundu: "YAP-ın yaranmasında Ümummilli Lider Heydər Əliyevin yanında olmuş və bu illər ərzində partiyamızın inkişafına töhfə vermiş şəxslərin xidmətlərini yüksək dəyərləndirərək Veteranlar Şurasına üzv seçdilər. Veteranlar Şurasının üzvləri regionlara səfərlər edəcəklər, gənclərlə görüşlər keçirərək ictimaiyyəti dövlətimizin keçdiyi keçməkeçli yolla və uğurlarımızla bir daha tanış etdirərək gənclərimizdə vətənpərvərlik ruhunun yüksəlməsinə töhfə verəcəklər. YAP İdarə Heyətinin üzvlərinin qarşısında mühüm vəzifələr durur. Bu, ölkədə həmrəyliyin və milli birliyin möhkəmlənməsinə, dövlətimizin müstəqilliyinin sarsılmaz və əbədi olmasında dövlət siyasətinin geniş ictimaiyyətə çatdırılması və təbliğ edilməsində aktiv fəaliyyətə başlanmasını tələb edir. YAP ümumxalq partiyasına çevrilmişdir. Məhz 6 siyasi partiyanın YAP-a birləşməsi müraciət etməsi və birləşməsi partiyamızın gücünü daha da artıracaq və dövlətimizin uğurlarının davamlı olmasına töhfə verəcəkdir.



Qeyd etmək istəyirəm ki, YAP-ın VII qurultayı qələbəlik ruhunda keçirildi. Xalqımız qalibdir, ölkəmizin ərazi bütövlüyü təmin olunmuşdur. Təbii ki, bütün bu uğurlara partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının iqtidarda təmsil olunması ilə nail olmuşuq. Ölkəmizdə və regionda yaranmış yeni reallıqlar partiyamızın fəaliyyətində qarşımızda yeni üfüqlər açır və İdarə Heyətin üzvləri olaraq biz, öz üzərimizə düşən vəzifələri şərəflə və məsuliyyətlə yerinə yetirilməsinə çalışacağıq".

# "YAŞAT" Fondu: Bu günə kimi 4 527 şəxs öhdəliyə götürülüb

Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu) tərəfindən ağır yaralanan qazilərimizin səhhətinin bərpası ilə bağlı tədbirlər davam etdirilir.



Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən SİA-ya verilən məlumata görə, bu günə kimi 4 527 şəxs öhdəliyə götürülüb. Eyni zamanda, bugünədək 2 775 şəhid ailəsi ziyarət olunub. Bundan başqa, 1 788 yaralının müraciəti qeydə alınıb. Ümumilikdə, ziyarət olunan şəhid ailəsi üzvləri və yaralıların sayı 13 347-dür.

# Milli Məclisin plenar iclası keçirilib



Dünən Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. İclasda sədr, əvvəlcə, Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayından söz açıb. Qurultay münasibətilə partiyanın bütün üzvlərini ürəkdən təbrik edib. Qeyd edib ki, qurultayda YAP-ın Sədri, Azərbaycan Prezidenti İlham Əliyev geniş nitqlə çıxış edib. Proqram xarakteri daşıyan həmin nitqdə ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan partiyanın yaranma tarixinə, ölkəmizin ictimai-siyasi inkişafında oynadığı son dərəcə mühüm rola nəzər salınıb, Azərbaycanın siyasi, iqtisadi və hərbi potensialının gücləndirilməsi, dünyanın hesablaşdığı nüfuzlu bir dövlətə çevrilməsi üçün görülmüş işlərdən, qarşıda dayanan vəzifələrdən bəhs edilib.

Sahibə Qafarova deyib: "Bu gün biz qürurla söyləyirik ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ölkəmizin başlıca problemini həll edib, 30 ilə yaxın müddətdə Ermənistanın işğal altında saxladığı torpaqlarımızı azad edib, dövlətimizin ərazi bütövlüyünü bərpa edib. Bununla da ölkəmizdə və bölgədə tamamilə yeni geosiyasi vəziyyət yaranıb. Prezident İlham Əliyev dediyi kimi, biz bütün addımlarımızı düzgün atmalıyıq ki, daim qələbə qazanaq, Azərbaycan bayrağı daim yüksəklərdə olsun".

Milli Məclisin sədri deputatların nəzərinə çatdırıb ki, qurultayda bir sıra mühüm qərarlar qəbul edilib, struktur və kadr dəyişiklikləri həyata keçirilib. Məmnunluqla bildirib ki, YAP-ın yeni Nizamnaməsinə uyğun olaraq, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin edilib. Parlamentin rəhbəri bütün həmfikirləri adından Mehriban xanım Əliyevanı təbrik edərək bu şərəfli və məsul vəzifədə ona uğurlar arzulayıb. Həmçinin partiyanın rəhbər orqanlarına seçilmiş həmkarlarını da təbrik edib və onların öz fəaliyyətləri ilə bu yüksək etimadı doğruldacaqlarına inamını bildirib.

İclasda spiker Sahibə Qafarova vurğulayıb ki, Yeni Azərbaycan Partiyası xalqın istək və arzularını təcəssüm etdirən siyasi qüvvə kimi tarixi zərurətdən yaranıb; vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və suverenlik, azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində inkişaf edərək ölkəmizin siyasi həyatında indiki mövqeyinə yüksəlib. Milli Məclisin sədri əminliyini bildirib ki, YAP-ın üzvləri Azərbaycan Prezidenti və partiyanın Sədri İlham Əliyevin həyata keçirdiyi möhtəşəm işləri və yeni quruculuq siyasətini dəstəkləmək üçün onun ətrafında daha sıx birləşərək ölkəmizin xoşbəxt gələcəyi naminə bundan sonra da var qüvvələrini sərf edəcəklər.

Sonra çıxışında ordu ilə bağlı məsələyə toxunan Sahibə Qafarova deyib ki, ordu quruculuğu, silahlı qüvvələrin kompleks inkişafı və modernləşdirilməsi daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Şanlı Ordumuzun vəziyyəti və nailiyyətləri Milli Məclisin iclaslarında da dəfələrlə vurğulanıb və yüksək qiymətləndirilib. Qeyd edib ki, hazırda dünyanın güclü orduları sırasında layiqli yer tutan Azərbaycan Ordusu Vətən müharibəsi zamanı ölkəmizin və dünyanın hərb tarixinə yeni şanlı səhifələr yazıb.

Milli Məclisin sədri bildirib ki, hərbi qulluqçuların təminatının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə həyata keçirilən hərbi siyasətin ən mühüm istiqamətlərindən birini təşkil edir və bu günlərdə post-müharibə dövrünün, xidmətin xüsusiyyətləri, qulluq və sosial-məişət şəraitinin mürəkkəbliyi nəzərə alınaraq hərbi qulluqçuların vəzifə maaşlarına müddətli əlavələr müəyyən edilib. Plenar iclas iştirakçılarına məlumat verilib ki, Azərbaycan Ordusunun Ermənistanla dövlət sərhədində və Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlı kontingentinin yerləşdirildiyi zonaya bitişik ərazilərdə hərbi xidmət keçən hərbi qulluqçuların vəzifə maaşlarına 100 faiz həcmində, işğaldan azad edilmiş və hazırda infrastruktur qurulmayan ərazilərdə hərbi xidmət keçən hərbçilərin vəzifə maaşlarına isə 50 faiz həcmində müddətli əlavələr təyin olunub.

Sədrin çıxışından sonra plenar iclasda səkkiz məsələdən ibarət gündəlik təsdiqlənib. Cari məsələlərin müzakirəsində deputatlar Kəmaləddin Qafarov, Azay Quliyev, Cavid Osmanov, Əli Məsimli, Zahid Oruc, Soltan Məmmədov, Etibar Əliyev, Sahib Alıyev, Bəhruz Məhərrəmov, Fazil Mustafa ölkə və dünya gündəminin aktual hadisələrinə dair fikirlərini bildiriblər. Bir sıra təkliflər irəli sürülüb.

Gündəlikdəki məsələlərin müzakirəsi "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi"nin dinlənilməsi ilə başlanıb. 2020-ci il üzrə illik məruzəni parlamentə ədliyyə nazirinin müavini Vilayət Zahirov təqdim edib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən söz açan məruzəçi bildirib ki, ədliyyə və məhkəmə işçiləri, həmçinin bələdiyyə nümayəndələri də həmin döyüşlərdə fədakarlıq göstəriblər. Müharibə dövründə Ədliyyə Nazirliyi ordumuza, yaralılara və şəhid ailələrinə maddi, mənəvi və tibbi dəstəyini əsirgəməyib. Eyni zamanda, nazirlik xarici dövlətlərin ədliyyə nazirlərinə, dünya prokurorlarına və nüfuzlu beynəlxalq təşkilatlara Ermənistanın işğalçılığı və insanlıq əleyhinə cinayətləri barədə reallığı əks etdirən 400-dək müraciət ünvanlayıb. Ölkəmizin ədalətli mövqeyini təbliğ etmək məqsədilə Ədliyyə Nazirliyi tərəfindən yaradılan "Qarabağ Azərbaycandır!" elektron məlumat platforması http://justice.gov.az/categories/1148) 3 dildə (Azərbaycan, rus, ingilis) fəaliyyət göstərib. Ölkə həqiqətlərini dünyaya geniş yaymaqda və erməni təbliğatını ifşa etməkdə öz imkanlarını səfərbər etməleri üçün bələdiyyələrlə də lazımi iş aparılıb.

Deputatların nəzərinə çatdırılıb ki, pandemiya ilə bağlı karantin tədbirlərinə baxmayaraq, 2020-ci ildə də bələdiyyələrin fəaliyyətində səmərəliliyin artırılması, yol verilmiş pozuntuların aradan qaldırılması və qarşısının alınması istiqamətində tədbirlər davam etdirilib.

Vilayət Zahirov bələdiyyələrin fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə ötən il mövcud qanunvericiliyə bir sıra dəyişikliklər edildiyini də vurğulayıb. Yerli özünüidarəetmə qurumlarının işinə kömək və metodoloji yardım məqsədilə təlimatlar hazırlandığını bildirib.

Məruzəçi məlumat verib ki, 2020-ci il ərzində Ədliyyə Nazirliyində 79 min 858, Naxçıvan MR-in Ədliyyə Nazirliyində isə 2 min 670 bələdiyyə aktına inzibati nəzarət qaydasında baxılıb və hüquqi ekspertizadan keçirilib. Həmin sənədlərin 95,7 faizi qanunvericiliyə uyğun hesab edilib. 2 min 939 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün aidiyyəti bələdiyyələrə təkliflər verilib. Bu təkliflər əsasında bələdiyyələr tərəfindən 1416 akt ləğv edilib, 1316 akt isə dəyişdirilib. Bələdiyyələr tərəfindən təmin olunmayan 13 təklif üzrə məhkəmə iddiası qaldırılıb, onlardan 2-si təmin edilib. Sonra iclasda regional məsələlər komitəsinin üzvü Nizami Cəfərov illik məruzənin bu komitədə geniş müzakirə olunduğunu bildirib, fikirlərini açıqlayıb.

Plenar iclasda məruzə ətrafında aparılan müzakirələrdə birinci vitse-spiker Əli Hüseynli, vitse-spiker Adil Əliyev, komitə sədrləri Siyavuş Novruzov və Tahir Rzayev, deputatlar Sabir Rüstəmxanlı, Qüdrət Həsənquliyev, Kamran Bayramov, Azər Badamov, Erkin Qədirli, Əli Məsimli, Razi Nurullayev illik məruzəni və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2020-ci ildə gördüyü işləri müsbət dəyərləndiriblər. Məruzənin yüksək səviyyədə hazırlandığı qeyd olunub. Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə irad və təkliflər nəzərə çatdırılıb.

Müzakirələrdən sonra bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi nəzərə alınıb.

Plenar iclasın gündəliyindəki qanun layihələrini iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov, ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov, əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov, hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov və Milli Məclis sədrinin birinci müavini, hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim ediblər.

İclasda üçüncü oxunuşda müzakirəyə çıxarılmış "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda, Ailə Məcəlləsində və Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Sonra ikinci oxunuşda plenar iclasa təqdim olunmuş 3 məsələyə baxılıb. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, həmçinin "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ayrı-ayrılıqda öncə əsas kimi qəbul olunub, sonra maddə-maddə səsə qoyulub. Deputatlar həmin qanunların üçünə də ayrı-ayrılıqda ikinci oxunuşda müsbət səs veriblər.

İclasın yekununda "İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Deputatlara məlumat verilib ki, təqdim edilən qanun layihəsi "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2019-cu ildə qəbul olunmuş qanunun icrası ilə əlaqədardır. Həmin dövrdə Vergi Məcəlləsinə 162 maddədən ibarət fundamental dəyişikliklər edilib. Hazırda icra haqqında qanuna təklif edilən dəyişiklik uyğunlaşdırma məqsədi daşıyır.

Fikir mübadiləsindən sonra qanun layihəsi səsə qoyulub və birinci oxunuşda qəbul edilib. Plenar iclasda qanun layihələri ətrafında aparılan müzakirələrdə deputatlar Tahir Kərimli, Sadiq Qurbanov, Bəxtiyar Əliyev, Rüfət Quliyev, Qüdrət Həsənquliyev rəy və təkliflərini bildiriblər. Bununla da Milli Məclisin iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***

# "France 24" televiziya kanalı Qarabağda aparılan quruculuq işlərinə dair reportaj yayımlayıb




"France 24" televiziya kanalında "Dağlıq Qarabağa bələdçi ilə səfər: mina təmizləməsi, tikinti və kommunikasiya" adlı reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycan hökuməti tərəfindən onlarla jurnalistdən ibarət qrup üçün İkinci Qarabağ müharibəsində azad edilmiş ərazilərimizə bələdçi ilə turun təşkilindən söz açılıb. "France 24" kanalının ölkəmizdəki xüsusi müxbirinin də turda iştirak etdiyi bildirilir. Qeyd edilir ki, kommunikasiyanın məqsədi tur vasitəsilə bölgənin inkişafında hökumətin iradəsini göstərmək olub.

Reportajda İkinci Qarabağ müharibəsində azad edilmiş Füzuli rayonunda aparılan quruculuq işləri ilə tanış olmaq üçün onlarla jurnalistin dəvət olunduğu göstərilib. Jurnalist qrupu üçün təşkil edilmiş turun ilk mərhələsi ərazilərin minalardan təmizlənməsini göstərmək olub. Mina təmizləmə işlərinə məsul şəxs Mədəd Məmmədov minadan təmizləmə işlərinin beynəlxalq mediada işıqlandırılmasının əhəmiyyətinə toxunaraq, ermənilərin mina xəritəsini verməmdiyini bildirib. Qeyd edib ki, mina təmizləmə işlərində üzləşdikləri əsas problemlər məhz ermənilər tərəfindən mina xəritəsinin verilməməsidir. Xəritə olmadığı üçün minasız yerlər də minalı kimi qəbul edilir və minatəmizləmə işləri çox vaxt aparır.

Həmçinin reportajda Füzulidə aeroport tikinti sahəsini əks etdirən videogörüntülər yayımlanıb və dövlət tərəfindən büdcə ayrıldığı, gələn payıza qədər aeroportun istismara verilməsinin planlaşdırıldığı diqqətə çatdırılıb. Yeni aeroportun tikintisinin Azərbaycan Prezidenti İlham Əliyevin qərarı ilə tikildiyi bildirilərək, aeroportun regionun turistik, eləcə də logistik potensialına böyük töhfə verəcəyi vurğulanıb. Qeyd edilib ki, aeroportu azad edilmiş digər rayonlarla birləşdirən avtomobil yolu tikilməkdədir. Bu tikintilərdə Azərbaycan və türk şirkətlərinin çalışdığı bildirilib. Eyni zamanda, Füzulini Qarabağın mərkəzində yerləşən Şuşa şəhəri ilə birləşdirəcək ən qısa avtomobil yolunun da tikilməkdə olduğu vurğulanıb.

## Liviyalı diplomat: "Qarabağdakı erməni vəhşiliyinin misli-bərabəri yoxdur"



Qarabağdakı erməni vəhşiliyinin misli-bərabəri yoxdur. Merdinli kəndində müsəlmanların ibadət yeri - məscidi tövlə kimi istifadə ediblər. Bu, əsl vandalizm aktıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli rayonunun işğaldan azad olunan Merdinli kəndinə səfər edən Liviyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Əşrəf Adəm deyib.

"Mən məscidə daxil olanda onun divarlarında təhqiramiz şəkillər gördüm. Bu addım bütün müsəlmanların dini hisslərini təhqir edir. Nəhayət ki, haqq öz yerini tapdı, Azərbaycan torpaqları işğaldan azad olundu. Mən bütün müsəlmanları buradakı dini abidələrin bərpasına yardıma dəvət edirəm", - deyə diplomat qeyd edib.

# Vüqar Rəhimzadə: "Bu gün Yeni Azərbaycan Partiyası ölkənin siyasi sisteminin monolit gücüdür"

**Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən, keçdiyi 29 ilə yaxın şərəfli yolda Azərbaycanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirildiyi zamana diqqət yetirsək, bir daha bu reallığı böyük inam və qürur hissi ilə qeyd edə bilərik ki, Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəsinin yaratdığı yeni reallıqlar bütün sahələrdə, o cümlədən siyasi sistemin təkmilləşdirilməsində yeni mərhələyə yol açıb. SİA-nın məlumatına görə, bu fikirləri "91-lər"in üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.**



V.Rəhimzadə qeyd edib ki, möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin partiyanın VII qurultayında dərin məzmunlu, proqram xarakterli nitqi ayrı-ayrı dövrlərin reallıqlarının aydın mənzərəsini yaratmaqla yanaşı, qarşıdakı illərin prioritetlərinin təqdimatı oldu: "Qurultayda birliyimizin, həmrəyliyimizin, partiyanın təsis olunmasından ötən 29 ilə yaxın müddətdə toplanmış tarixi təcrübə ilə gənc nəslin dinamizmi arasında vəhdətin yaradılmasının, ölkəmizdə siyasi dialoq mühitinin mövcudluğunun təsdiqi olan qərarların qəbulu və sair kimi mühüm addımlar Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə, yeniləşməyə açıq olduğunu bir daha əyani şəkildə sübut etdi.

Məlumdur ki, hər bir mühüm hadisə daim keçilən yolun təhlilini, baş verən hadisələrin mahiyyətinin düzgün dəyərləndirilməsini bir zərurət kimi ortaya qoyur. Qurultaydakı proqram xarakterli nitqində "Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev Yeni Azərbaycan Partiyasının hansı çətin şəraitdə yaradılmasından, həmin dövrdə xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi olaraq 91 nəfər ziyalının onları hər an təqib edən təhdidlərdən qorxmadan, heç nədən çəkinmədən, böyük cəsarət göstərərək, dövlətin maraqlarını hər şeydən üstün tutaraq ulu öndər Heydər Əliyevə müraciət etməsindən, partiyanın təsis konfransının hansı səbəblərdən Bakıda deyil, Naxçıvanda keçirilməsindən, ümumiyyətlə, 1992-ci ilin noyabr ayının gənc Azərbaycan dövlətinin həyatında yeni bir mərhələyə yol açmasından geniş bəhs etdi. Bu reallıq hər zaman böyük minnətdarlıq hissi ilə qeyd edilir ki, "91-lər"in Ulu Öndərə müraciəti müstəqilliyimizin əbədiliyinin təmin edilməsində əhəmiyyətli rol oynadı. Ümummilli Liderimizə tarixi müraciətin müəllifi olan "91-lər"in üzvü olaraq bu məqamı xüsusi qeyd etmək istərdim ki, ziyalıların "Azərbaycan Sizin sözünüzü gözləyir" tarixi müraciətinə dahi şəxsiyyət Heydər Əliyevin "Yeni, müstəqil Azərbaycan uğrunda" başlıqlı cavabı Azərbaycanın "olum, ya ölüm" dilemması qarşısında qaldığı o çətin dövrdə hər birimizdə yeni bir siyasi partiyanın təsis edilməsi ideyasının reallaşacağına böyük ümidlər yaratdı. Ümummilli Lider "91-lər"in həmin müraciətinə tarixi cavabında bildirdi ki, belə bir partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Ulu Öndər Azərbaycanın müstəqilliyinin tarixi nailiyyətimiz olduğunu önə çəkərək onun qorunmasının hər birimizin vətəndaşlıq borcu olduğunu qeyd edirdi.

"Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır" söyləyən dövlətimizin başçısı İlham Əliyev bir daha diqqəti o vaxt cəsarət və milli düşüncə göstərmiş məşhur "91-lər"in Ulu Öndərə müraciətinə yönəldərək onların fəaliyyətini yüksək qiymətləndirdi: "Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular". Məhz bu əsasda möhtərəm Prezidentimiz İlham Əliyev qurultaydakı yekun nitqində gənc nəslin milli, vətənpərvərlik ruhunda tərbiyəsindən bəhs edərkən keçilən yolun daim təbliğ olunmasını, tarixi paralellər fonunda müstəqilliyimizin daimiliyini təmin etmək üçün hansı çətinliklərin dəf edildiyini onlara çatdırılmasını qarşıya mühüm vəzifə kimi qoyaraq YAP fəallarına çağırış etdi. Çünki reallıq budur ki, xalq dahi şəxsiyyət Heydər Əliyevə arxalanmaqla, onun ətrafında sıx birləşməklə öz gələcəyini təmin etdi, nəticədə müstəqilliyimiz əbədi, dönməz oldu.

Biz "91-lər" fəxr edirik ki, doğma partiyamızın sıraları yaranmasından ötən 29 ilə yaxın dövrdə kəmiyyət və keyfiyyət baxımından heç bir siyasi təşkilatla müqayisə edilməyəcək dərəcədə zənginləşib. Bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 760 mindən çox insanı birləşdirir. Azərbaycanın müstəqillik tarixində qazandığı hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin fikirlərinə istinad etsək, YAP Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir: "O, bir adamın istəyi ilə yaranan partiya deyildir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan adamların şəxsi təşəbbüsü ilə, onların ətrafında toplaşan adamların təşəbbüsü ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərəsinin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır". Yeni Azərbaycan Partiyası zamanın bütün sınaqlarından, hər bir çətinlikdən şərəflə çıxdı, qısa müddətdə milyonların partiyasına çevrildi, bütün kateqoriyadan olan insanları bir araya gətirib sıralarında birləşdirdi. Yeni Azərbaycan Partiyasının yarandığı gündən indiyədək siyasi xəttinə, tutduğu yola sadiqliyi, hər zaman dövlətinə, xalqına xidmət üçün bütün səylərini birləşdirməsi, "Yeni Azərbaycan uğrunda" devizini illər keçdikcə "Yeni hədəflərə doğru" şüarı ilə əvəzləməsi onun sıralarının genişlənməsinə səbəb oldu.

Bu mühüm məqamı xüsusi qeyd etmək istəyirəm ki, ötən müddət ərzində YAP-ın qurultaylarında (1999, 2001, 2005, 2008, 2013, 2018) qəbul edilən tarixi qərarlar ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsində mühüm rol oynayıb. Xüsusi vurğulanmalıdır ki, 1999-cu ildə keçirilmiş qurultaydan sonra Yeni Azərbaycan Partiyasının inkişafında mühüm bir səhifə açıldı. Partiyanın rəhbərliyində o dövrdə Azərbaycan gənclərinin lideri kimi cənab İlham Əliyevin təmsil olunması bu siyasi qurumun gələcək uğurlarına böyük stimul verdi. Məhz 1999-cu ildə keçirilən qurultayda o zaman ARDNŞ-in Birinci vitse-prezidenti olan cənab İlham Əliyev partiyanın rəhbər strukturuna seçildi. Bu, YAP-ın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Cənab İlham Əliyevin YAP rəhbərliyində təmsilçiliyindən sonra gənclərə öz potensial imkanlarını ortaya qoymaq üçün bütün imkanların yaradılması çox qısa zaman kəsiyində bu təbəqənin partiya sıralarına sürətli axınını təmin etdi. 2005-ci ildə keçirilən YAP-ın III qurultayında isə ölkə Prezidenti, YAP Sədrinin birinci müavini İlham Əliyevin partiyanın Sədri seçilməsi ilə yeni inkişaf mərhələsinin təməli qoyuldu.

Bu gün isə sonsuz qürur hissi ilə qeyd edirik ki, son 17 ildə Azərbaycan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə möhkəm təməl üzərində yeni, təkmil islahatlar əsasında inkişaf edir. Bu, Yeni Azərbaycan Partiyasının kəmiyyət və keyfiyyət baxımından inkişafında da özünü aydın şəkildə göstərir. Ötən illərin xronologiyasına diqqət yetirdikdə Heydər Əliyev ideyalarına söykənən partiyamızın gücləndiyinin, nəinki ölkənin, hətta Cənubi Qafqaz regionunun aparıcı siyasi təşkilatına çevrildiyinin şahidi oluruq. Biz "91-lər" fəxr edirik ki, 1992-ci ildə təsis konfransını Naxçıvanda Ulu Öndərin rəhbərliyi ilə çox çətin şəraitdə 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyası bu gün sıralarında 760 mindən artıq üzvü birləşdirir.

Partiyanın VII qurultayında qəbul olunan mühüm qərarlardan biri 6 siyasi partiyanın öz müraciətləri əsasında Yeni Azərbaycan Partiyasına qoşulmasıdır. Azərbaycanda hər zaman siyasi dialoq mühiti mövcuddur. Hakimiyyət siyasi partiyaların bir araya gəlməsi, dövlətimizin, xalqımızın gələcəyi naminə birlik nümayiş etdirməsi üçün zəruri olan bütün addımları atır. 44 günlük İkinci Qarabağ müharibəsi bu birliyin, həmrəyliyin təqdimatı oldu. Vətən müharibəsində 50 siyasi partiya ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevi dəstəklədiyini, onun ətrafında sıx birləşdiklərini bildirdilər. Möhtərəm Prezidentimiz İlham Əliyev partiyanın VII qurultayında bu məqama xüsusi diqqət yönəltdi: "Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik. Bu prosesə müharibədən əvvəl start verildi və hesab edirəm ki, qısa müddət ərzində yaxşı nəticələr əldə olundu. Demək olar ki, bütün partiyalar, - əgər biz özünü siyasi qurum adlandıran antimilli şuranı istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyl göstərmişlər, bizim təşəbbüsümüzü alqışlamışlar və artıq bu dialoq baş tutub."

Dövlətimizin başçısının da vurğuladığı kimi, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var. Cənab İlham Əliyev qurultayda bu barədə demişdir: "Yeni Azərbaycan Partiyasının nümayəndələrini də, üzvlərini də buna fikir verməyə çağırıram ki, bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur."

6 siyasi partiyanın Yeni Azərbaycan Partiyasına qoşulması, eyni zamanda, YAP-ın siyasi mövqeyinin daha da güclənməsinə xidmət edən uğurlu bir addımdır. Çünki YAP-ın ideoloji prinsipləri milli həmrəyliyə və inkişafa xidmət edir. YAP ölkəmizdə milli həmrəyliyin yeni inkişaf mərhələsinin təcəssümünə çevrilir. Bu kimi qərarlar Yeni Azərbaycan Partiyasına gündən-günə artan inamın, etimadın göstəricisidir. Əvvəldə də qeyd etdiyim kimi, partiya bu illər ərzində tutduğu yola sadiqliyini sözdə deyil, əməldə sübut edib, xalqın partiyası imicini daha da möhkəmləndirib. YAP dövlətə, xalqa xidməti fəaliyyətinin əsası kimi qəbul etməklə davamlı uğurlara imza atır. YAP hər zaman yeniliyə, təkmilləşməyə meyl göstərən partiyadır. Son illərin uğurlarından bəhs edərkən Yeni Azərbaycan Partiyasının 2019-cu ildə ölkədə həyata keçirilən islahatlardan qanunverici orqanın da kənarda qalmaması, parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etməsini xüsusi qeyd etməliyik. Məhz bu təşəbbüs əsasında 2020-ci il fevralın 9-da növbədənkənar parlament seçkiləri keçirildi. Diqqət çəkən əsas məqamlardan biri yeni parlamentin formalaşmasında siyasi sistemin təkmilləşməsinə xidmət edən addım kimi müxalifət partiyalarının nümayəndələrinin də Milli Məclisin rəhbərliyində, komitələrə sədrlikdə təmsil olunmasıdır. Bu, bir daha dövlətimizin siyasi partiyalar arasında birliyin, həmrəyliyin, siyasi dialoqun tərəfdarı olmasının bariz nümunəsidir. Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması da bu məqsədə xidmət edir. Bu baxımdan siyasi partiyaların rəhbərləri ilə mütəmadi keçirilən görüşlər, günümüzün əsas məsələləri ətrafında aparılan müzakirələr, ümumi mövqenin ortaya qoyulması və sair təqdir olunan məqamlardandır.

Ümumilikdə möhtərəm Prezidentimiz İlham Əliyevin son 17 ildə həyata keçirdiyi təkmil islahatlar Azərbaycanın davamlı inkişafını təmin edir. Cənab İlham Əliyev qurultayda 2003-2020-ci illəri hazırlıq dövrü kimi xarakterizə etdi. Bütün sahələrdə davamlı uğurlara imza atan Azərbaycanın yeganə problemi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi idi. Artıq bu illər ərzində bütün sahələrdə qazandığımız uğurlar, görülən hazırlıq işləri Dağlıq Qarabağ münaqişə-

# Vüqar Rəhimzadə: “Bu gün Yeni Azərbaycan Partiyası ölkənin siyasi sisteminin monolit gücüdür”

sinin də tarixə qovuşmasına yol açdı. Bu səhifəni bağlayıb qarşıdakı dövrün hədəfləri və onlara çatmaq yolları müəyyənləşdirilir. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın VII qurultayının keçirilməsini zəruri edən səbəblərdən geniş bəhs edərək bildirdi ki, yeni bir vəziyyət yaranıb, bu vəziyyəti biz yaratmışıq. Azərbaycan reallıqları yaradan ölkədir. Bundan əvvəlki dövrlərdə də ölkəmizin təşəbbüsləri ilə reallaşan layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatlarını şərtləndirdi. Azərbaycanın uğurlu enerji, nəqliyyat siyasəti nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxardı, eyni zamanda, bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı. Bu gün bu layihələr ətrafında birləşən və bu layihələri Azərbaycanla bərabər icra edən ölkələrin sayı artmaqdadır. 44 günlük İkinci Qarabağ müharibəsinin yaratdığı yeni reallıqlar bölgədə uzunmüddətli sülhün, təhlükəsizliyin təmin edilməsi üçün önəmli şərtlər formalaşdırıb və yeni əməkdaşlıq imkanlarını genişləndirir. Bütün sahələrdə yeni mərhələnin əsası qoyulub.

Yeni Azərbaycan Partiyasının VII qurultayında möhtərəm Prezidentimiz İlham Əliyevin proqram xarakterli, müasir dövrün, 44 günlük İkinci Qarabağ müharibəsində Qələbəmizin yaratdığı yeni reallıqları özündə əks etdirən nitqi bütün partiya üzvləri üçün yeni vəzifələr müəyyənləşdirdi. Bu əminlik ifadə edildi ki, gələn il partiyanın 30 illik yubileyi qeyd olunacaq. Partiya yeniləşmiş formatda daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcək: “Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm.”

Dövlətimizin başçısı İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq qarşıdakı 3 ay ərzində yeni proqram hazırlanacaq. Təbii ki, bu sənəd özündə bütün yenilikləri, qarşıdakı dövrün prioritetlərini və onlara nail olmaq yollarını ehtiva edəcək. Bu gün postmüharibə dövrünü yaşayırıq. Hazırda əsas vəzifələrdən biri bizə Zəfəri yaşadan şəhidlərimizin ailələrinə, qazilərimizə diqqət və qaygı göstərmək, daim onların yanında olmaqdır. Dövlətimizin bu kateqoriyadan olanlara diqqət və qayğısı göz önündədir. Möhtərəm Prezidentimiz bildirdi ki, YAP da bu kateqoriyadan olan insanlara daim qayğı və diqqət göstərməlidir. Böyük Qayıdışa hazırlıq işləri görülür. YAP Böyük Qayıdış proqramı çərçivəsində məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması prosesində öndə olmalı, öz rolunu oynamalıdır.

Təhlillər fonunda bu fikri böyük qürurla qeyd edirik ki, partiyanın həyatında yeni dövr başlayır. VII qurultay yeniliklərlə tarixə yazıldı. 40 nəfərdən ibarət İdarə Heyətinin, 13 nəfərdən ibarət Təftiş Komissiyasının tərkibi təsdiqləndi, partiyanın tərkibində Veteranlar Şurası yaradıldı. Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə uyğun olaraq, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyeva partiya sədrinin Birinci müavini, Əli Əhmədov partiya sədrinin müavini, Tahir Budaqov partiya sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri təyin edildilər.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti daim yüksək dəyərləndirilir. Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Fondunun prezidenti kimi, eyni zamanda, Ümummilli Liderin yaradıcısı olduğu partiyada rəhbər strukturda təmsil olunmaqla onun şah əsəri olan müasir müstəqil Azərbaycanın daha da möhkəmlənməsinə, dayanıqlı inkişafına, yeni reallıqlara uyğun müəyyənləşdirilən prioritetlərin həyata keçirilməsinə, ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsinə öz töhfələrini verir və bu istiqamətdə səylərini daha da artırır.

Yeni Azərbaycan Partiyasının rəhbər orqanlarına seçilmiş bütün partiya üzvlərini təbrik edir, qarşıya qoyulan hədəflərə zamanında və yüksək səviyyədə nail olmağımız üçün birgə fəaliyyətimizdə uğurlar arzulayıram. Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq”.

## Rauf Əliyev: “Ölkəmizin siyasi həyatında yeni demokratik məzmunlu presedent yaranıb”



“Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə milli həmrəyliyə və sağlam dialoqa xidmət edən siyasi islahatlar nəticəsində Azərbaycanda milli maraqların üstünlük təşkil etdiyi dövr yaşanır. Ölkədə aparılan iqtidar-müxalifət dialoqu nəticəsində əksər siyasi partiyaların həm iqtidarla həm də öz aralarında sağlam münasibətləri formalaşmış, ümumdövlət məsələlərində vahid mövqe yaranıb”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rauf Əliyev deyib.

Rauf Əliyev bildirib ki, ölkəmizin siyasi həyatında yeni demokratik məzmunlu presedent yaranıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Biz birlikdə güclüyük” fikri dövlət siyasətinin əsas fəlsəfəsinə çevrilərək siyasi münasibətlərdə də öz əksini tapır. Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edildi. Bu fakt Azərbaycanda dövlət və milli maraqlar naminə müxtəlif siyasi qüvvələrin inteqrasiya nümunəsidir. Cənab Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev YAP-ın VII qurultayındakı nitqində qeyd etmişdir ki, “Bizim dost partiyaların bu gün bizə qoşulması çox önəmli, əlamətdar hadisədir. Bu da siyasətimizin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addımdır və eyni zamanda, göstərir ki, partiyamızın həm məramı, həm proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir. Əminəm ki, bir neçə partiyanın Yeni Azərbaycan Partiyası ilə birləşməsi partiyamızı gücləndirəcək”.

Millət vəkilinin sözlərinə görə, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən milli həmrəylik siyasəti, Vətən müharibəsində möhtəşəm Qələbənin əldə olunmasında mühüm rol oynamış və qazanılmış bu Qələbə ölkədə milli birliyi daha da gücləndirmişdir: “Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri özlərini çox rahat hiss edirlər, öz ailəsində, öz doğma torpaqlarında hiss edirlər. Xalqlar arasına dostluq, mehriban münasibətlər Azərbaycan xalqının böyük sərvətidir. Biz bunu daima qorumalıyıq. Bu siyasət xalqımız tərəfindən qəbul edilir və daim dəstəklənir. İkinci Qarabağ müharibəsində Azərbaycanda yaşayan bütün xalqların nümayyəndələri bir yerdə fədakarlıq, qəhrəmanlıq göstərmişlər, vətən uğrunda şəhid olmuşlar, Azərbaycan bayrağı altında döyüşmüş, qəhrəmanlıq nümunələri göstərərək, doğma torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyümüzi bərpa etmişlər”.

## Elşad Mirbəşiroğlu: “YAP-ın həm struktur, həm də proqram baxımından özünü yeniləməsi ölkənin siyasi həyatına dinamizm gətirəcək”



Ölkəmizin ictimai-siyasi həyatında aparıcı mövqeyə malik olan Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilmiş VII qurultayı çox əlamətdar bir dövrə təsadüf etdi. Ölkəmizin həyatında keyfiyyətcə yeni bir mərhələ yaşanmaqdadır. 2018-ci il prezident seçkilərindən sonra dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə başladılan və bütün sahələri əhatə edən sistemli islahatlar, o cümlədən Vətən müharibəsində qazandığımız şanlı Zəfər qarşımızda yeni reallıqların yaranmasını şərtləndirib. Əlbəttə, hadisələrin sürətli inkişafı hədəf və məqsədlərimizə də yenidən baxmağı, bu xüsusda daha çevik addımlar atmağı tələb edir. Bu mənada, Yeni Azərbaycan Partiyasının VII qurultayı həm partiyamızın, həm də dövlətimizin qarşısında duran vəzifələrin müəyyən olunması baxımından böyük əhəmiyyət kəsb edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü Elşad Mirbəşiroğlu bildirib.

YAP-ın İdarə Heyətinin üzvü diqqətə çatdırıb ki, Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası ölkəmizdə gedən ümumi inkişaf tendensiyalarından kənarda qala bilməzdi. Nəzərə alaq ki, islahatların mühüm istiqamətlərindən birini də məhz siyasi islahatlar təşkil edir. YAP isə öz təcrübəsinə və zəngin dövlətçilik ənənələrinə görə bu prosesin önündə dayanmalıdır. Bir sıra partiyaların YAP-a qoşulması da bu mənada, əlamətdar hadisə olmaqla ölkəmizin siyasi palitrasında hakim partiyaya olan inam və etimada dəlalət edir. Bu, onu göstərir ki, Yeni Azərbaycan Partiyasının təbliğ etdiyi ideya və dəyərlər universaldır, cəmiyyətin bütün təbəqələrinin maraqlarını əhatə edir və Azərbaycan güclənməsini istəyən bütün siyasi qüvvələr onun ətrafında birləşərək öz məqsədlərini realizə edə bilərlər. Beləliklə, partiyamızın məramı, proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir.

Deputatın sözlərinə görə, Birinci vitse-prezident Mehriban Əliyevanın partiyamızın sədr müavini təyin olunması YAP-ın tarixində yeni bir mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər. İndiyə qədər qazandığımız bütün zəfər və nailiyyətlərdə Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi əvəzsiz xidmətləri olan Mehriban Əliyevanın YAP sədrinin müavini vəzifəsinə təyin olunması partiyanın yeni dövrün çağırışlarına daha səmərəli və çevik şəkildə cavab verməsinə zəmin yaradacaq. Məlum olduğu kimi, Birinci vitse-prezident Mehriban Əliyeva müharibə dövründə və sonra hərbçilərimizin sosial-məişət şəraitinin yaxşılaşdırılması, yaralı hərbçilərimizin müalicəsi və reabilitasiyası, şəhid ailələrinin hərtərəfli qayğı ilə əhatə olunmasını fədakarcasına öz üzərinə götürmüş və bu istiqamətlərdə yorulmaz fəaliyyəti ilə həssas kontingentin tam etimadını qazanmağa nail olub.

“Bildiyiniz kimi, bu gün xalq olaraq qarşımızda dayanan əsas hədəf Böyük Qayıdış proqramı çərçivəsində məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılmasına nail olmaqdır. Yeni Azərbaycan Partiyası isə ölkənin aparıcı siyasi təşkilatı olaraq bu prosesin də önündə dayanaraq öz rolunu oynamalıdır. YAP təşkilatı təcrübəsi və ətrafında birləşdirdiyi böyük insan resursunun sayəsində bu ali məqsədimizin reallaşmasında önəmli töhfələr verə bilər”, - deyən Elşad Mirbəşiroğlu vurğulayıb ki, qurultayda YAP-ın Sədri, Prezident İlham Əliyev partiyaya 3 aya yeni proqram hazırlamağı tapşırdı. Bu da ondan irəli gəlir ki, artıq reallıqlar dəyişib. Vətən müharibəsindəki qələbədən sonra qarşıda yeni hədəflər, yeni missiyalar var. Yaşadığımız hibrid müharibə çağının reallıqlarına uyğun olaraq, YAP Azərbaycana qarşı aparılan informasiya hücumlarına qarşı mübarizədə ön sıralarda dayanmalı, bir sipər funksiyasını yerinə yetirərək dövlətimizə yönəlmiş hibrid təhdidlərin zərərsizləşməsində önəmli rol sahibi olmalıdır. Onun sözlərinə görə, struktur dəyişikliyi edilərək YAP-ın Mərkəzi Aparatının formalaşdırılması yeni hədəflər uğrunda çevik qərarların qəbulu və innovativ həll mexanizmlərinin tətbiqinə şərait yaradacaq. Bir sözlə, YAP-ın həm struktur, həm də proqram baxımından özünü yeniləməsi, habelə rəhbər vəzifələrə edilmiş uğurlu kadr təyinatları, bütövlükdə ölkənin siyasi həyatına dinamizm gətirəcək.

# Su içməyin faydaları və zərərləri hansılardır?



Yaşamaq üçün həyat boyu ehtiyacımız olan suyun faydalarını bilmək lazımdır. Ancaq bəzən insanlar su içməyi ehmal edir. İnsan bədəninin yüzdə 55-i ilə yüzdə 75-i sudan ibarətdir. SİA-nın verdiyi məlumata görə, aparılan araşdırmalara əsasən su içməyin kilo verməkdən-baş ağrısına, böyrək daşından-ruh halına qədər bir çox faydaları var. Hər kəsin gün ərzində içməli olduğu suyun da miqdarı vardır. Yetkin bir qadın günlük 2,7 litr ərzində su istifadə etməlidir. Yetkin bir kişidə isə bu miqdar 3,7 litrdir. Körpələrin isə ilk 6 ayda ana südü, daha sonra qatı qida ilə birlikdə su ehtiyacları yaranır.

Su bütün orqanların və toxumaların çalışması üçün qan dövranını tənzimləyir. Ürək-damar sistemi, tənəffüs və həzm sistemi, reproduktiv sistemin, sinir sisteminin, böyrəyin, beyin və qaraciyərin düzgün işləməsi kifayət qədər su içilməsindən asılıdır. Eyni zamanda, su içmək qəbizliyə və yüksək təzyiqə də yaxşı təsir edir. Su zehin gücünü qoruyur və bədəndən itirilən su yerinə qoyulmadıqda konsantrasiyon əskikliyi, refleksin ağırlaşmasını, qısamüddətli yaddaş problemləri, gərginlik və narahatlıq yarada bilər. Bunun qarşısını almaq üçün fəaliyyətiniz zamanı su içməyi unutmamalısınız. Su itkisi fiziksəl gücü və beyin gücünü də zəiflədir və susuzluq beyin toxumalarının kiçilməsinə səbəb ola bilər.

Su içmək baş ağrılarını azaldır. Bəzi vaxtlar baş ağrısı çəkirsinizmi? Bəs başınızın ağrısının səbəbi yetərli miqdarda su istifadə etməməyiniz ola bilərmi? Çünki araşdırmalar göstərir ki, baş ağrısının səbəblərindən biri bədənin susuz qalmasıdır. Həmçinin bu problem miqreni artıra bilər və ya miqren ağrısının daha uzun olmasına səbəb olacaq.

Böyrək sağlığı üçün faydalıdır: Su deyiləndə ağıla ilk gələn orqanlarımızdan biri olan böyrəklərimizin sağlığı da bu səbəblər arasındadır. Çünki yetərli miqdarda su içmək böyrəklərdəki zərərli maddələrin bədəndən xaric olmasına kömək edir. Eynilə araşdırmalar bir çox insanın həyatının müəyyən müddətində əziyyət çəkdiyi böyrək daşının da su içmək ilə əlaqəsi olduğunu ortaya qoyur. Dəri quruluğuna da faydalı olan su miqdarı dəri nəmliyinin dəri quruluğunun çarəsi olmaqla yanaşı, sərtliyini və elastikliyinə də təsir edir. Əgər sızanaq, dəri quruluğu kimi problemləriniz varsa su içmək balansınızı gözdən keçirin.

Su içmək insanın çəkisini zəiflədir: Aparılan araşdırmalar göstərir ki, 10.500 ml su içmək, maddələr mübadiləsinin sürətini 30 faiz artırır. Maddələr mübadiləsi 10 dəqiqə içində başlayar və yarım saat ərzində maksimum səviyyəyə çatar.

### Su içmək balansı düzgün olmazsa, susuzluq qəlbinizə və əzələlərinizə təsir edər

Xroniki susuzluq qanın həcminin azalmasına və qəlbin ritminin sürətlənməsinə səbəb olar. Aşağı qan həcmi qan təziqinin və qandakı oksigen miqdarının düşməsinə səbəb olar ki, bu zaman həyat təhlükəsi yaradar.

### Susuzluq böyrəklərin vəzifəsini yerinə yetirməməsinə səbəb olur

Su balansını tənzimləmək böyrəklər üçün olduqca önəmlidir. Böyrəklərin funksiyalarını yetəri qədər gerçəkləşdirməsi və toksinlərin bədəndən atılması üçün su istifadəsinə diqqət edilməlidir. Xroniki susuzluq urolitiyaz adlanan sidik sistemində daş xəstəliyinə səbəb ola bilər. Araşdırmalar nəticəsində bəlli olur ki, su istifadəsinin artması urolitiyaz riskini azaltdığını göstərir. Bədəndəki maye əskikliyi, beyində büzüşməyə səbəb olacaq və bu proses də baş ağrısına gətirib çıxaracaq.

*Qönçə Quliyeva*

# Pərvin Kərimzadə: Yeni Azərbaycan Partiyası qarşısında dayanan vəzifələrin öhdəsindən layiqincə gələcək



29 il əvvəl ictimai-siyasi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası ilk gündən cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrildi. Partiyanın yaradıcısı dahi şəxsiyyət, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra hakim partiya statusunu alan YAP daim siyasi proseslərin önündə olub, ona göstərilən etimadın öhdəsindən layiqincə doğruldub.

Bunu Milli Məclisin deputatı Pərvin Kərimzadə bildirib. Millət vəkili qeyd edib ki, ümumxalq etimadın ünvanına çevrilən partiya hər zaman öz fəaliyyəti ilə dövlətimizin inkişafına, yüksəlişinə, Heydər Əliyev ideallarına sədaqətini, Ulu öndərin müəyyən etdiyi strateji inkişaf kursunu əzmlə həyata keçirən Prezident İlham Əliyevin apardığı islahatlara töhfələr verib. Məhz Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların təşəbbüsü ilə Milli Məclisin buraxılması və yeni parlament seçkilərinin təyin edilməsi üçün Prezidentə müraciətin qəbul edilməsi partiyanın islahatlara verdiyi dəstəyin və töhfənin daha bir nümunəsi idi.

Prezident İlham Əliyevin sədri olduğu partiya məramı, proqramı, həm də fəaliyyəti və əldə etdiyi nailiyyətlərlə kifayətlənmir, Azərbaycanın parlaq gələcəyi naminə ilklərə imza atır, cəmiyyətimizdəki yeniliklərlə, dəyişikliklərlə bir addımlayır.

VI qurultayından ötən üç il müddətində ciddi irəliləyişlər əldə edən dünənin, bu günün və gələcəyin partiyasının VII qurultayı siyasi təşkilatın tarixində növbəti dönüş nöqtəsi oldu. Yeni Azərbaycan Partiyasının qurultaylarında qəbul edilən tarixi qərarlar ölkəmizin ictimai - siyasi həyatına yeniliklər gətirib, ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından mühüm rol oynayıb. Partiyanın VII qurultayı bir daha göstərdi ki, ölkəmizdə siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasında, təkmilləşməsində siyasi təşkilatın rolu və yeri xüsusidir.

Hakim partiyanın 44 günlük Vətən müharibəsi dönəmində milli birlik modelini dünyaya nümayiş etdirən Azərbaycanın siyasi həyatında yeni bir strategiyanın - siyasi həmrəylik, inteqrasiya və milli birlik modelinin əsasını qoyması xüsusi ilə diqqətəlayiqdir. 6 siyasi partiyanın YAP-a qoşulması isə partiyanın cəmiyyətə milli həmrəylik mesajları verdiyini, qapılarının konstruktiv qüvvələrə açıq olduğunu nümayişi, eyni zamanda ölkəmizin siyasi mühitində siyasi dialoq mühitinin dərinləşməsində, demokratik ənənələrin şaxələnməsində yenilik oldu.

Ölkə Prezidenti İlham Əliyevin qurultayda proqram xarakterli çıxışı, vacib qərarların qəbul edilməsi partiyanın idarə olunmasının və partiyada fəaliyyətin tənzimlənməsinin yeni, çevik mexanizminin yaradılması, təkcə Yeni Azərbaycan Partiyasının üzvlərinə deyil, bütövlükdə Azərbaycan cəmiyyətinə verilən, xalqımızın yüksək mənəvi dəyərlərindən, dünyagörüşündən qaynaqlanan, ölkəmizin siyasi münasibətlər sisteminin gələcəyinə yönəlmiş mesaj oldu.

VII qurultay göstərdi ki, hər zaman siyasi proseslərdə önündə olan hakim partiya 30 illik yubileyinə daha fəal, yenilənmiş formatda qədəm qoyur, fəaliyyətini yeni mərhələyə yüksəldərək, bundan sonra da qarşısında dayanan vəzifələrin öhdəsindən layiqincə gələcək.

# YAP Binəqədi rayon təşkilatının yaradılmasının 28-ci ildönümü münasibətilə "Yeni Azərbaycan Partiyası - Zəfərlərə aparan yol" adlı videokonfrans keçirildi



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının yaradılmasının 28-ci ildönümü münasibətilə "Yeni Azərbaycan Partiyası - Zəfərlərə aparan yol" videokonfrans keçirildi. Tədbirdə Milli Məclisin üzvü Kamaləddin Qafarov, Binəqədi rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, Binəqədi rayon İcra Hakimiyyəti başçısının müavinləri Vüsar İsmayılov, Sevinc Süleymanova, YAP Binəqədi rayon təşkilatının Şura və İdarə Heyətinin üzvləri, əməkdaşları, ərazi ilk partiya təşkilatının sədrləri və fəalları, Binəqədi rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII Qurultayı barədə ətraflı bəhs etdi. Qurultayda ölkə Prezidenti, partiyanın sədri cənab İlham Əliyevin geniş məzmunlu, konseptual əsaslara söykənən nitqi, gündəlikdə duran məsələlər və davamlı islahatlara səbəb olacaq qərarlar haqqında məlumat verdi.

YAP Binəqədi rayon təşkilatının sədr müavini Tünzalə Zeynalova çıxışında partiya sıralarında qüurula təmsil olunduğunu vurğulayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən Yeni Azərbaycan Partiyasının dövlətimizin və xalqımızın həyatındakı əvəzsdiz rolundan danışdı.

Millət vəkili Kamaləddin Qafarov partiyanın çətin dönəmlərdə yarandığını bildirib. 1990-cı illərin əvvəllərində ölkəni idarə edən şəxslərin yarıtmaz fəaliyyəti nəticəsində ölkəmizin uçuruma yuvarlandığını, ciddi təhlükələrlə üz-üzə qaldığını söylədi. Xalqımızın ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsini təkidlə tələb etdiyini, 1993-cü ildə Heydər Əliyevin Azərbaycanı xilas etməsinin Azərbaycan tarixində mühüm bir hadisə olduğunu bildirib. Millət vəkili həmçinin ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafı üçün misilsiz xidmətlər göstərdiyini və bu siyasətin bu gün də dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Azərbaycanın dünyada artan nüfuzunu, ölkəmizin hərtərəfli inkişafını məhz dövlət başçısının düşünülmüş, uzaqgörən siyasətinin nəticəsi adlandırdı.

Tədbirin sonunda YAP Binəqədi rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına münasibətilə bir qrup şəxs Fəxri Fərmanla təltif edildi. Tədbir bədii hissə ilə başa çatdı. Binəqədi rayonu 126 nömrəli tam orta ümumtəhsil məktəbinin XI sinif şagirdi Fidan Allahverdiyevanın ifasında Hüseyn Arifin "Analar" şeirini səsləndirildi.

**ZÜMRÜD**

# Transxəzər Fiber Optik Kabel Xətti layihəsi "Qazaxıstan-Azərbaycan: əməkdaşlığın yeni imkanları" tədbirində vurğulanıb

**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi AzerTelecom şirkətinin icra etdiyi Xəzərin dibi ilə Azərbaycanla Qazaxıstan arasında dənizaltı infrastruktur layihəsi "Qazaxıstan-Azərbaycan: əməkdaşlığın yeni imkanları" mövzusunda işgüzar görüşdə müzakirə olunub.**



Qazaxıstanın Bakıdakı Səfirliyində təşkil olunmuş işgüzar görüş çərçivəsində iki ölkə arasında müasir iqtisadi prioritetlər, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın hazırkı vəziyyəti, onların post-pandemiya dövründə inkişaf perspektivləri müzakirə edilib.

AzerTelecom şirkətinin Direktorlar şurasının sədri Fuad Allahverdiyev tədbirdə çıxış edərək Azərbaycanla Qazaxıstanın İKT və telekommunikasiya sektorlarının inkişafına töhfə verəcək Transxəzər Fiber Optik Kabel Xəttinin çəkilməsi və bu layihənin imkanları barədə danışıb.

Fuad Allahverdiyev bu layihənin ümumilikdə regionda İKT sahəsində əməkdaşlıq əlaqələrinin gücləndirməsinə töhfə verəcəyini bildirib, layihənin icrası üçün dövlətlərarası sazişin imzalandığını qeyd edib, layihənin iqtisadi və texniki imkanları barədə danışıb. O, bu layihə ilə Avropa ilə Asiya arasında Azərbaycan və Qazaxıstan vasitəsilə "Rəqəmsal İpək Yolu"nun qurulması imkanının formalaşacağını vurğulayaraq, dənizaltı magistral fiber-optik kabel xətti sayəsində Orta Asiya və ətraf region ölkələrinin bağlantı xidmətlərinə olan ehtiyaclarının təmin olunacağını qeyd edib.

Tədbirdə çıxış edən Qazaxıstanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimov, iki ölkənin dövlət sektorunun, işgüzar dairələrinin və milli şirkətlərinin nümayəndələri Azərbaycan və Qazaxıstanın işgüzar dairələri arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi barədə danışıblar. İşgüzar görüşdə iki ölkə arasında ticarət-iqtisadi və investisiya əlaqələrinin genişləndirilməsi üçün yeni perspektivlər və imkanlar barədə məzmunlu fikir mübadiləsi baş tutub.

AzerTelecom Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan Bakcell şirkətinin törəmə müəssisəsidir. AzerTelecom Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. Hazırda AzerTelecom şirkəti Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir.

# 10 Mart Milli Teatr Günüdür

**Hər zaman sənət adamlarına diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə “Milli Teatr Günü” təsis edilib. Sərəncama əsasən, milli mədəniyyətin inkişafında və ölkənin mədəni həyatında milli teatrın əhəmiyyəti və rolu nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında “Milli Teatr Günü” kimi qeyd edilməsi qərara alınıb. Qeyd edək ki, Azərbaycanda teatr sənətinin kökləri xalqın fəaliyyəti və dünyagörüşü ilə bağlıdır. Mərasim, ayin və oyunlardakı tamaşa elementləri müstəqil xalq teatrının yaranmasında mühüm rol oynamışdır.**

Qədim tarixə malik “Sayaçı”, “Novruz”, “Gəvsəç” kimi mərasimlərdə xor, rəqs və dialoqla yanaşı, dramatik süjetə, hərəkətə, bəzən isə bədii surətə də rast gəlinir. “Novruz” mərasiminin mühüm epizodunu təşkil edən “Kosa-kosa” oyunu əsl teatr örnəyidir. Burada ardıcıl süjet, dramatik hərəkət, həmçinin, xüsusi paltar geyinən maska taxan aktyor vardır. Bir neçə gün davam edən toy mərasimlərində ifa olunan “Xan-xan”, “Mütriblərin rəqsi”, “Gəlinlə qayınananın deyişməsi” və s. epizodlar, burada oyun və tamaşa ünsürlərinin müstəqil əhəmiyyət kəsb etdiyini göstərir. Azərbaycan professional teatrının təşəkkülündə xalq teatrı əhəmiyyətli rola malik olmuşdur. Azərbaycan teatrının tarixi M.F.Axundovun 1873-cü ilin mart və aprel aylarında Bakıda səhnəyə qoyulan “Lənkəran xanın vəziri” və “Hacı Qara” tamaşalarından başlanır. H.Zərdabinin təşəbbüsü, N.Vəzirov və Ə.Adıgözəlovun yaxından iştirakı ilə realni məktəbin şagirdləri tərəfindən göstərilən bu ilk həvəskar tamaşalar milli teatrın yaranması üçün qüdrətli təkan idi. M.F.Axundovun əsərlərindən ibarət tamaşalar verildiyi bəllidir. 1876-cı ildən M.F.Axundovun komediyaları Tiflisdə də oynanılmışdır. XIX əsrin 70-80-cı illərində Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən teatr həvəskarları tədricən Bakıdakı teatr xadimləri ətrafında formalaşmağa başlayırlar. Ona görə də, Bakının teatr həyatı 80-ci illərin axırlarına doğru yenidən canlanır və burada, əsl mənada, müəyyən bir teatr kollektivinin yaranmasına səbəb olur. 1890-cı illərdən başlayaraq, N.Nərimanovun Azərbaycan teatrının ideyaca sağlam bir yöndə inkişaf etməsində, teatrda səhnə realizmi tələblərinin həyata keçirilməsində böyük xidməti olmuşdur.

1916-cı ildə C.Məmmədquluzadənin “Ölülər” komediyasının tamaşaya qoyulması Azərbaycan teatrının ideyaca yetkinləşdiyini göstərən bir olay idi. Bu tamaşa mövhumat və cəhalət, yalan və zülm dünyasına qarşı bir ittihamnamə kimi səslənərək, böyük uğur qazandı. 1970-ci illərdə Azərbaycanda, bütün sahələrdə olduğu kimi, teatr sahəsində də intibah yarandı. Teatra, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan, onlara, sözün əsl mənasında, hamilik edən Ulu Öndər Heydər Əliyevin səyi və köməyi nəticəsində, milli teatr sənətimiz vüsətli inkişaf yoluna düşdü.

1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi görünməmiş təntənə ilə qeyd olundu. Azərbaycanın o vaxtkı MK-nın Birinci Katibi Heydər Əliyevin dərin məzmunlu məruzəsi dinlənildi. Yubiley münasibətilə “Gülüstan” Sarayındakı ziyafətdə də Ümummilli Lider Heydər Əliyev sənət, sənətkarlar və sənətkarlıq barədə məruzə ilə çıxış etdi. O vaxt neçə-neçə sənətçi təzə mənzillərlə təmin olundu, fəxri adlara layiq görüldü və mükafatlandırıldı. Həmin ildə təkcə Azərbaycan Dövlət Akademik Dram Teatrının üç görkəmli sənətkarı - M.Məmmədov, İ.Dağıstanlı və




İ.Osmanlı - keçmiş SSRİ-də ən yüksək ad olan SSRİ xalq artisti adına layiq görüldülər. 1974-cü il 27 iyundan 10 iyula kimi teatr Moskvada qastrolda oldu. Lenin ordeni ilə təltif edildi. S.Vurğunun “İnsan”, İ.Əfəndiyevin “Mahnı dağlarda qaldı”, N.Poqodinin “Zamanın hökmü”, F.Şillerin “Məkr və məhəbbət”, V.Şekspirin “Fırtına”, C.Məmmədquluzadənin “Ölülər” əsərlərinin tamaşalarını göstərdilər. 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqillik əldə etdikdən sonra, 1993-cü ildən əhalinin sosial rifah halı və vətəndaş fəaliyyəti artdı. Azərbaycanın Akademik Milli Dram Teatrında Azərbaycan və qeyri-milli dramturqların klassik və müasir mövzuda bir sıra maraqlı əsərlərin tamaşası hazırlandı.

Bu gün Ulu Öndər Heydər Əliyev ənənələrini ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin Sərəncamı ilə teatr binaları təmir və bərpa etdirilib, onların dünya teatr səhnəsinə uyğun olaraq, fəaliyyət göstərmələrinə hər cür şərait yaradılır. Teatrlarımız Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, təmir və bərpa etdirilir. Bu proses, ardıcıl olaraq davam etdirilir. Azərbaycan teatrı dünya standartlarına uyğun səviyyədə müasir avadanlıqlarla təchiz olunur. Prezidentin Sərəncamı əsasında, teatr xadimlərinə xüsusi mükafatlar, fəxri adlar verilir və həyat şəraitləri yüksəldilir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə teatrların fəaliyyətinə dövlət qayğısını daha da artırmaq məqsədi ilə Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına “akademik” statusu verildi. Bu gün Azərbaycan teatrı Milli Teatr Gününü qeyd edir. Xüsusi olaraq, qeyd edək ki, teatrın yüksəlməsində peşəkar aktyorların da rolu müstəsnadır. Azərbaycan teatrı dedikdə, ilk növbədə, bu ağır yükü çiynində daşıyan aktyorların siması göz önündə canlanır. Bu qisimdə olan sənətkarlardan biri də Nəsibə Zeynalovadır. Elə bu günün bayram kimi qeyd olunması da elə onun ölüm tarixi ilə bağlıdır. Azərbaycan teatr sahəsində çalışan sənətkarlar bayramı qeyd etməklə yanaşı, Azərbaycan teatr səhnəsinin böyük ustad sənətkarı olan Nəsibə xanımın anım gününü də qeyd edirlər.

Azərbaycan teatrsevənləri arasında “Qaynana” kimi sevilən, Milli Musiqili Komediya Teatrının inkişafında müstəsna rol oynayan, qırx ildən çox işlədiyi sənət ocağının repertuar ağırlığını ləyaqətlə çiyinlərində daşıyan Nəsibə xanım Azərbaycan realist aktyor məktəbinin ən layiqli nümayəndələrindən biri kimi formalaşıb və şöhrətlənmişdir.

Yaradıcılığının mayası gülüş və musiqi ilə yoğrulmuş Nəsibə xanım orta məktəbdən rəqqasəlik etmiş, milli oyun havalarının mürəkkəb və lirik incəliklərinə yiyələnmişdi. Gənc aktrisa yenicə yaranan Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasına birinci dərəcəli aktrisa kimi fəaliyyətə başlamışdır. Həmin il Bakı Teatr Məktəbinə daxil olaraq aktyorluq təhsili alıb. Aleksandr Tuqanovdan, Məhərrəm Haşımovdan, Ağasadıq Gəraybəylidən dərs alan tələbə Nəsibə Zeynalova texnikumda oxuyarkən Katarina, Elvira, Yelizaveta kimi rollarını oynayıb.

Ömrünü Musiqili Komediya Teatrı ilə bağlayan aktrisa sənət ocağının müəyyən fasilələrlə truppa, filarmoniyanın nəzdində dəstə-ansambl şəklində fəaliyyət göstərdiyi illərdə də kollektivdən ayrılmayıb. Aktrisa milli klassik operettalarımızın

tamaşalarında Gülpəri, Cahan xala, Sənəm, Mələk xanım və Kələk xanım kimi xarakterik səhnə obrazlarında çıxış edib. Aktrisanın zəngin rollar qalereyasında tərcümə əsərlərində ifa etdiyi Kabato və Barbale, Ziraldina, Zivər xanım, Alma, Qesiya rollarının xüsusi yeri var. Nəsibə Zeynalovanın yaradıcılığının ən parlaq dövrü isə çağdaş bəstəkarların müasir mövzusu musiqili komediya əsərlərinin tamaşalarındakı bir-birindən fərqlənən komik personajların ifası ilə bağlıdır. Bu baxımdan aktrisanın Xanpəri, Nargilə, Şərəf və Nisə, Məsmə, Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Züleyxa, Tükəz, Tərlan, Zemfira, Şölə xanım, Xeyransa, Matan, Güləndam, Qəmər və başqa rollarının əvəzsiz ifaçısı sayılır. Xüsusilə, Cənnət xala, Nargilə, Züleyxa rolları zəngin ifadə vasitələri, yumorun milliliyi, təbii realliğı ilə sənəmizin nadir inciləri sırasında durur. Azərbaycan Televiziyasında onlarla yumoristik səhnəciklərdə, teletamaşalarda, intermediyalarda çıxış etmiş Nəsibə Zeynalova, həmçinin, “Azərbaycanfilm”in çoxlu ekran əsərlərinə çəkilib. Kino obrazları içərisində Fatmanisə, Telli, Züleyxa, Cənnət xala, Gülsüm, Əsli xala rolları daha canlı və daha şöhrətlidir. Musiqili teatrımızın inkişafında böyük xidmətlərinə görə Nəsibə xanım xalq artisti fəxri adına layiq görülüb. “Hicran” musiqili komediyasındakı Qızbacı roluna görə Azərbaycan Dövlət Mükafatı Laureatıdır. 1974-cü ildə Rauf Kazımovski onun yaradıcılığı barədə “Aktrisanın təbəssümü” televiziya filmini çəkib.

Rəqs, mahnı və hərəkətlərdən eyni epizodda, hətta eyni məqamda yüksək peşəkarlıqla istifadə edib. Xalq yumorunun, “Qaravəlli” oyun tamaşalarının, lətifə söyləmələrinin estetik oyungöstərmə prinsiplərindən həssaslıqla bəhrələnib. Obrazın xarakterini hərəkətdə koloritli tərzdə verməkdə Musiqili Komediya Teatrında Nəsibə xanıma tay aktrisa olmayıb. Nəsibə xanım klassik operettalarda obrazın sözlərinə qarşı çox həssas idi və təhrifə, yaxud əlavəyə qətiyyən yol verməzdi. Ancaq librettosu zəif musiqili komediyalarda ifa etdiyi rolun sözlərini dəyişər, dialoqların məntiqini gücləndirər, vəziyyətə uyğun deyimlər, cümlələr qurardı. Bu axtarış tamaşadan-tamaşaya davam edər, bəzi əlavələr olar, müəyyən ixtisarlar aparılar, tapıntılar cilalanardı. Elə buna görə də, Azərbaycan teatr səhnəsində möhürünü vurdu. Nəsillərə örnək ola biləcək sənət məktəbini yaratdı.

***Zümrüd BAYRAMOVA***

## Azərbaycanda övladlığagötürmə asanlaşdırılır

Azərbaycanda övladlığagötürmə asanlaşdırılır. SİA-nın məlumatına görə, bununla bağlı məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan Ailə Məcəlləsində dəyişiklikdə öz əksini tapıb.



Məsələ barədə məlumat verən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova diqqətə çatdırıb ki, Prezidentin 2018-ci ildə “Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” imzaladığı Fərmana əsasən Ailə Məcəlləsinin övladlığa götürmə ilə bağlı müddəaları təkmilləşdirilmiş və bu sahədə xidmətlərin aparılması üçün elektron idarəetmə sistemi yaradılmışdır. İndi təklif edilən dəyişikliklər isə övladlığa götürmə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə mühüm töhfə olacaq və əsas məqsəd uşaqların hüquq və maraqlarının qorunması, onların sağlam ailə mühitində böyüməsi üçün etibarlı zəmin yaratmaqdır. Dəyişikliyə görə, uşaqları övladlığa götürmək istəyən qohumları üçün övladlığa götürmə proseduru asanlaşdırılır, bəzi prosedurlar aradan qaldırılır. Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

## Şuşanın su təchizatı ilə bağlı asılılığı aradan qaldırılıb

Cəbrayıl rayonu ərazisində İran İslam Respublikası ilə həmsərhəd Araz çayı üzərində tikilmiş ümumi sututumu 1.6 mlrd kubmetr olan Xudafərin su anbarının idarə olunmasında Azərbaycanın iştirakı təmin olunub. Nəticədə təxminən 250 min hektar torpaq sahəsinin su təminatının əhəmiyyətli dərəcədə yaxşılaşmasına və elektrik enerjisi istehsalına şərait yaranacaq. Bu barədə Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatında deyilir.



Hesabatda qeyd olunub ki, Daşaltı kəndinin içməli su təchizatı sistemində baş vermiş qəzalar aradan qaldırılıb, təmir-bərpa işlərindən sonra Şuşa şəhərinə içməli suyun verilişi təmin olunub, dayanıqlı su təchizatının təşkili və Kiçik Kirs mənbəyindən asılılığın aradan qaldırılması üçün zəruri tədbirlər görülərək şəhərin içməli su təminatını həyata keçirən Zarıslı mənbəyinin məhsuldarlığı artırılıb.

## Azərbaycanda ümumilikdə 237260 nəfər COVID-19-a yoluxub, 3250 nəfər vəfat edib

Azərbaycanda indiyədək ümumilikdə 237260 nəfər koronavirus infeksiyasına yoluxub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, onlardan 229915 nəfər müalicə olunaraq sağalıb, 3250 nəfər vəfat edib, aktiv xəstə sayı 4095 nəfərdir.



# Ermənilərin “Tavuş” təlaşı: nə baş verir?

## Tiqran Abramyan: “Nə müdafiə naziri, nə də hökumət məmurları açıqlamırlar ki, rus hərbçiləri bir neçə gün əvvəl Tavuşa hansı razılaşma əsasında və hansı məqsədlə gediblər”






Ötən həftəsonu işğaldan azad olunmuş Qubadlı rayonunun ərazisinə daxil olan və üçtərəfli Bəyanatdan sonra Azərbaycanın nəzarəti altına keçən Şurnux kəndinin Ermənistan tərəfində heç bir effekt yaratmayan və əslində, boş bir populizmə söykənən hadisə baş verdi. Daha doğrusu, düşmən ölkənin bir qrup siyasi-ictimai adamları 30 metr hündürlüyündə dirək basdıraraq, ölkələrinin bayraqlarını həmin dirəkdən asdılar. Söz yox ki, məğlub ölkə yalnız bu kimi hərəkətləri ilə özünə təskinlik verir və istər iqtidarı, istərsə də müxalifəti olsun - onlar yaxşı bilir və anlayırlar ki, artıq heç nəyi dəyişə bilməyəcəklər, buna nə gücləri, nə də digər potensialları var. Fakt budur ki, Şurnuxda Azərbaycan bayrağı dalğalanmaqdadır və ermənilər öz tərəflərində qalan bütün nöqtələrdə öz bayraqlarını assalar belə, özlərinə verdikləri təskinlikləri sadəcə nəticəsiz qalacaq və bu, birmənalıdır!

**Bəyanatda yalnız Zəngəzur bölgəsi deyil, eyni zamanda, Naxçıvanın Kərki, həmçinin Qazax rayonunun yeddi kəndi məsələsi də yer alıb və bu ərazilərin də geriyə - Azərbaycana qaytarılması prosesi baş tutmalıdır**

Yeri gəlmişkən, daha bir məsələ budur ki, sözügedən Bəyanatda yalnız Zəngəzur bölgəsi deyil, eyni zamanda Naxçıvanın Kərki, həmçinin Qazax rayonunun yeddi kəndi məsələsi də yer alıb və bu ərazilərin də geriyə - Azərbaycana qaytarılması prosesi baş tutmalıdır. Bu gün ermənilərin 30 il əvvəl Azərbaycanın Qazax rayonundan işğal etdikləri yeddi kəndi ətrafında hay-küy qaldırmaları da, məhz sözügedən məsələ ətrafındadır. Düşmənin “Tavuş” adlandırdıqları həmin ərazilərdə aparılacaq demarkasiyası nəticəsində Bəyanatın müddəalarına əsasən işğal altında qalmış kəndləri mütləq qaydada bizim nəzarətimiz altına keçəcək.

Beləliklə, erməni KİV-ləri, həmçinin sosial şəbəkə seqmentləri son günlər və ard-arda orada baş verən “ara-sıra atəşlər”, yaxud insanların evlərini tərk etmələri ətrafında səs-küy qaldırır, diqqəti həmin tərəflərə yönəltməyə cəhdlər göstərirlər. Bu arada, Ermənistanın “Enaket” analitik mərkəzinin rəhbəri, “dqr” adlı separatçı və quldur rejiminin “prezidentinin” “təhlükəsizlik məsələləri üzrə” keçmiş məsləhətçisi Tiqran Abramyan Facebook səhifəsində həmin məsələyə toxunub və sual edib ki, Rusiyanın kontingentini “Tavuşa” yerləşdirməsinin səbəbi hansı təhlükə nəticəsində yaranıb? SİA xəbər verir ki, bu haqda news.am yazır.

“Ermənistan müdafiə nazirinin Rusiya ilə sərhəd qrupunun Sünik (Zəngəzur) bölgəsinin Gorus-Qafan hissəsinə yerləşdirilməsi ilə bağlı razılığının olduğunu 2-3 dəfə söyləməsi üçün səbəb var. Əlbəttə buna ehtiyac var. Ancaq nə müdafiə naziri, nə də hökumət məmuru açıqlamırlar ki, rus hərbçiləri bir neçə gün əvvəl Tavuşa hansı razılaşma əsasında və hansı məqsədlə gediblər”, deyə o yazıb.

**“Enaket”in rəhbəri: “Hər hansı bir təhlükə var ki, hakimiyyət gizli iş birliyi aparır və hələ də aydın deyil ki, Ermənistan vətəndaşı buna görə hansı qiyməti ödəməli olacaq”**

Söz yox ki, əgər həmin ərazilərdəki torpaqlarımız, kəndlərimiz demarkasiya olunacaqsa, bu prosesdə üçtərəfli Bəyanata əsasən Rusiya tərəfinin də rol alacağını istisna etmək olmaz. Həmçinin, unutmamalıyıq ki, bu gün Ermənistan öz sərhədlərinə nəzarət etmək gücündə deyil və artıq uzun illərdir ki, bu ölkənin sərhəd mühafizəsi mexanizmi bilavasitə rusiyalı sərhədçilər tərəfindən tətbiq edilməkdədir. Belə olan halda, ermənilərin, daha dəqiq desək, Tiqran Abramyanın fikirlərini anlamaq çətin deyil - o, işğal altından azad ediləcək Qazax kəndlərinə işarə edərək, rus sərhədçi qrupunun oraya ezam edilmələrinin məqsədlərinin də demarkasiya ilə bağlı olduğuna eyham vurub. Ona görə də əlavə edib ki, rus sərhədçilərinin ərazidəki qalma vaxtlarının uzunmmüddətli, yoxsa qısamüddətli olacağı da tam aydınlaşmayıb. SİTAT: “Sual onda deyil ki, rus kontingentinin orada olması hər hansı problemi yaradır, yaxud hər hansı bir təhlükə var ki, hakimiyyət gizli iş birliyi aparır və hələ də aydın deyil ki, Ermənistan vətəndaşı buna görə hansı qiyməti ödəməli olacaq. Ermənistanla Rusiya arasındakı ikitərəfli, çoxtərəfli razılaşmalar iki ölkəyə hərbi əməkdaşlıq imkanlarını yaradır. Amma rəsmi dairələrdə gedənlərdən ictimaiyyət də məlumatlı olmalıdır. İctimaiyyət Tavuşun müxtəlif yaşayış məntəqələrində nələrin baş verdiyini rus hərbçilərindən soruşmamalıdırlar”.

**Ortada heç bir sülh razılaşması da mövcud deyil və müddəalara əməl olunmazsa, Silahlı Qüvvələrimiz razılaşmanı hərbi yolla da icra edə, işğal altında qalan kəndlərimizi geri qaytara bilər**

Düzdür, ermənilər, eləcə də Tiqran Abramyan da əslində yaxşı bilir və dərk edirlər ki, onların “Tavuş” adlandırdıqları ərazilərin bir hissəsi, məhz Azərbaycandan işğal olunub, zəbt edilib və indi ədalətin bərpası zamanıdır - torpaqlarımız geriyə qaytarılmalıdır. Məğlub Ermənistan qalib Azərbaycanın Bəyanatda əks edilən şərtlərini yerinə yetirməlidir. Çünki ortada heç bir sülh razılaşması da mövcud deyil, sadəcə atəşkəs rejimidir və müddəalara əməl olunmazsa, Silahlı Qüvvələrimiz razılaşmanı hərbi yolla da icra edə, işğal altında qalan kəndlərimizin geri qaytara bilər.

Fakt budur ki, Ermənistanın rəsmi hakimiyyət dairələri onsuz da çərçivədən çıxan ölkədaxili proseslərdən ciddi ehtiyat edir və bu kimi məsələləri maksimum şəkildə ictimaiyyətdən gizli saxlamağa çalışır. Əbəs deyil ki, Tiqran Abramyan sosial şəbəkədə bu məsələyə də toxunaraq yazıb: “Ermənistanın müdafiə nazirliyi, hakimiyyətin müxtəlif rəsmi kanalları təkzibetmə paradları keçirməyi sevirlər, lakin rus hərbçilərinin Tavuşdakı mövcudluqları digər məsələləri agah edir, hətta şəbəkələrdə fotoşəkillər də var ki, rusiyalı hərbçilər haraya dislokasiya olunublar, ancaq hakimiyyət susmağa, gizlətməyə davam edir”.

***Rövşən RƏSULOV***

# ABŞ-ın 12 ştatı Baydeni məhkəməyə verib



12 ştatın nümayəndələri ABŞ-in Prezidenti Co Baydenin xalqın sağlamlığını və ətraf mühiti qorumaq üçün imzalaladığı fərmandan sonra məhkəməyə müraciət ediblər. Ştat nümayəndələri hesab edirlər ki, dövlət başçısının qərarları əhali üçün müəyyən xərclərə səbəb olacaq. Bu barədə xəbəri “ The Hill” yayıb.

Qeyd edək ki, bu iddia əsasən respublikaçıların başçılıq etdiyi ştatlar tərəfindən irəli sürülüb. İlk olaraq məhkəməyə müraciət edən Missuri ştatının baş prokuroru Erik Şmidt olub. Onu, həmçinin Arkanzas, Arizona, Indiana, Kanzas, Montana, Nebraska, Ohio, Oklahoma, Cənubi Karolina, Tennessi və Yuta ştatlarının nümayəndələri dəstəkləyiblər.

İlk növbədə məhkəməyə müraciət edənlər Baydenin istixanaların qaz tullantıları üçün ayırdığı 9,5 trilyon dolları ağılsız bir hərəkət adlandıraraq onu tənqid ediblər. Onların sözlərinə görə, bu pullar kənd təsərrüfatında, elektrik enerjisi istehsalında, istehlakında və ya hər hansı digər iqtisadi fəaliyyətdə tənzimləmədə böyük bir artıma haqq qazandıracaq qədər böyük rəqəmlərdir.

Xatırladaq ki,fevral ayında ABŞ-ın rəsmi olaraq Paris İqlim Sazişinə qayıtdığı məlum oldu. Bayden yaxın illərdə tullantıları kəskin şəkildə azaldacağına söz verib.

# Aram Vardevanyan: “Bunun Cinayət Məcəlləsi ilə heç bir əlaqəsi yoxdur”



Ermənistanın birləşmiş müxalifətinin lideri Vazgen Manukyanın vəkili Aram Vardevanyan siyasətçiyə qarşı açılan cinayət işinə xitam verilməsi barədə vəsatət qaldırmaq istədiyini bildirib. SİA RİA Novosti Agentliyinə istinadən xəbər verir ki, bu barədə Aram Vardevanyan öz Facebook səhifəsində yazıb.

Qeyd olunur ki, bir qədər əvvəl, Ermənistan İstintaq Komitəsi, Manukyana rəsmi olaraq hakimiyyəti ələ keçirmə çağırışlarında ittiham olunduğunu və bu barədə qərar qəbul edildiyini bildirmişdi. İstintaq Komitəsi, Manukyanın “hakimiyyəti ələ keçirməyə çağırışlar” maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərarın “hakimiyyəti ələ keçirmək, konstitusiya quruluşunu zorla devirmək və onun 12 və 20 fevral tarixlərində etdiyi açıq çağırışlar” üçün verildiyini açıqlamışdı.

“İstintaq Komitəsi bu gün Ermənistanın ilk baş naziri Vazgen Manukyanın - bir sıra siyasi ibtidai və biabırçı işlərdən biri ilə bağlı ibtidai istintaqın başa çatdığını elan edib. Mən bu siyasi işə xitam verilməsi üçün vəsatət qaldıracağam, çünki bunun Cinayət Məcəlləsi ilə heç bir əlaqəsi yoxdur”, deyə Vardevanyan öz hesabında yazıb.

Xatırladaq ki, müxalifət namizədi Manukyan 20 fevralda baş nazirin istefasını istəyən 20-dək siyasi qüvvənin nümayəndələrinin qatıldığı mitinqdə müxalifəti “iqtidarı hər an ildırım sürəti ilə ələ keçirməyə hazır olmağa” çağırıb. O, aksiyaları hökumət başçısını istefaya məcbur etməli olan kütləvi etirazlar adlandırıb.

Diqqətə çatdıraq ki, Paşinyanın Rusiya istehsalı olan İskəndərlər barədə diqqətsiz, düşünülməmiş sözlərdən sonra İrəvanda növbəti siyasi böhran başlayıb. Mətbuatda yayılan məlumatlara görə, Ermənistanın Baş Qərargah rəisinin müavini baş naziri istehza edib, lağa qoyub və bunun ardınca baş qərargah rəisinin istefası təklif edilib. Cümə axşamı səhər Ermənistan Silahlı Qüvvələri Paşinyanın özünün istefasını tələb edən bir bəyanat yayıb. Baş nazir isə bunu bir çevriliş cəhdi kimi qiymətləndirib və tərəfdarlarını küçələrə çıxmağa çağırıb. Bu vaxt müxalifət barrikadalar qurub və parlamentin yaxınlığında bir düşərgə yaradıb, səlahiyyətlilərlə danışıqları və baş nazirin istefasını tələb edirlər.

***İnam Hacıyev***

# İranın vitse-prezidenti həbs edildi



İranın vitse-prezidenti və İran Ətraf Mühiti Mühafizə Təşkilatının direktoru İsa Kələntəri həbs edilib. “AA” bildirir ki, Kələntərinin həbsinə səbəb İran İslam İnqilabının lideri Ayətullah Ruhulla Xomeynini təhqir etməsi olub. Vitse-prezidentə 4 ay həbs və 2 il siyasətdən uzaqlaqlaşdırılma cəzası verilib. Kələntəri, həmçinin həqiqəti əks etdirməyən hesabatları ilə ictimaiyyəti aldatma səbəbilə 4 milyon Tümən (təxminən 164 ABŞ Dolları) məbləğində cərimələnib.

# Koçaryan Ermənistanı yenidən qanlı olaylara sürükləyir

**Ermənistanda daxili siyasi gərginliyin və qarşıdurmanın arxasında keçmiş prezident Robert Koçaryanın dayandığına artıq şübhə qalmır. O, martın 4-də verdiyi müsahibədə yenidən hakimiyyətə can atdığını gizlətməyib. Bu, bir daha təsdiqləyir ki, Robert Koçaryan və onun dəstəklədiyi qüvvələr müxalifət deyil, revanşistlərdir. O, baş nazir Nikol Paşinyanı istefaya göndərdikdən bir il sonra seçkilər keçirmək niyyətində olduqlarını bildirməklə, əslində, hakimiyyəti ələ keçirmək istədiklərini ortaya qoyub.**



Koçaryan Qarabağda əli günahsız azərbaycanlıların qanına bulaşan cani və Xocalı soyqırımının müəlliflərindəndir. O, bu cinayətkar əməli ilə ermənilərlə azərbaycanlılar arasında nifaqın təzələnməsinə bais olub. Koçaryan Qarabağdakı ermənilərin və erməni diasporunun təşkil etdiyi silahlı dəstələrə başçılıq edib, azərbaycanlı əhaliyə qarşı qırğınlar törədib.

Robert Koçaryan müasir dövrdə əli ermənilərin qanına batan ilk prezident olub. O, bir qayda olaraq, zorakılıqlar və qan tökülməsi ilə prezident olub, hakimiyyətdə qalıb.

Ölkədə genişlənən etirazlar fonunda Köçəryan 1997-ci ilin martında Ermənistanın o vaxtkı prezidenti Levon Ter-Petrosyan tərəfindən ölkənin baş naziri təyin edilib. 1998-ci ildə Levon Ter-Petrosyan məcburən istefaya göndərildikdən sonra o, prezidentin səlahiyyətlərini icra edib. Həmin il etiraz dalğası fonunda hakimiyyətdəki resursların hesabına martın 30-da prezident "seçilib".

Hakimiyyətdə qalmaq üçün o, siyasi rəqiblərini aradan götürülüməsinə şərait yaradıb. 1998-ci il oktyabrın 27-də Ermənistan parlamentinə silahlı hücum nəticəsində ölkənin siyasi rəhbərliyində de-fakto qərar qəbul edən baş nazir Vazgen Sarkisyan və parlament sədri Karen Dəmirçyan daxil olmaqla 8 nəfər öldürülüb. Sarkisyan və Dəmirçyanın başçılıq etdikləri islahata meyilli koalisiya 1999-cu ilin mayında keçirilən parlament seçkilərində səs çoxluğu qazanmış və praktiki olaraq prezident Robert Koçaryanı siyasi səhnədən kənarlaşdırmışdı. Koçaryan onları aradan götürməklə prezdentlik kreslosunda və hakimiyyətdə yerini möhkəmləndirdi. Bu cinayətin üstü hələ də açılmayıb.

2008-ci il aprelin 9-da onun prezident kimi səlahiyyət müddəti başa çatdı. O, Ermənistanda törətdiyi cinayətlərini ört-basdr etmək üçün cinayətin ortağı Serj Sarqsyanın prezident olması üçün əlindən gələni etdi.

2008-ci ilin fevralında Ermənistanda keçirilən prezident seçkisində Mərkəzi Seçki Komissiyası namizədlərdən biri olan və hakimiyyətin dəstəklədiyi Serj Sarqsyanın 52,8 faiz səs toplayaraq qalib gəldiyini elan etdi. Seçkinin nəticələrinin saxtalaşdırılmasına etiraz olaraq martın 1-2-də ölkədə geniş aksiyalar keçirilmişdi. Mitinqi dağıtmaq üçün ordu və polisin açdığı atəş sonucunda 10 nəfər ölmüş, 230 nəfər yaralanmışdı.

Nikol Paşinyan Ermənistanın baş naziri olandan sonra 2008-ci ilin 1-2 mart hadisələrinə görə cinayət işi təzələnib. Robert Koçaryan məsələ ilə bağlı 2018-ci il iyulun 26-da həbs olunmuşdu. Rusiyadakı "dostlarının" qoyduğu girov qarşılığında o zaminə buraxılıb.

Robert Koçaryan əli öz xalqının qanına batması ilə yanaşı Ermənstan iqtisadiyyatının xarici dövlətdən asılı vəziyyətə salınmasında başlıca rol oynayıb. Hakimiyyəti dövründə Ermənistanda yerləşən bir çox müəssisə Ermənistanın borcunu ödəmək məqsədi ilə Rusiyaya verilib. Bununla ölkənin Rusiyadan asılılığı daha da gücləndi.

Ermənistanın talan olunmasında da R.Koçaryan müstəsna rol oynayıb. Bu ölkə KİV-in yaydığı analitik yazılardan bildirilib ki, Robert Koçaryan və Serj Sarqsyan prezidentlikləri dövründə dövlətdən 20-30 milyard dollar mənimsəyiblər.







Qeyd olunub ki, təkcə bir bankda Serj Sarqsyanın qardaşı Aleksandr Sarqsyanın 30 milyon dolları aşkarlanıb: "Robert Köçəryan isə "Konqres" mehmanxasında 6 milyon dollar rüşvət alıb".

İkinci Qarabağ müharibəsi Ermənistanda da bəzi mətləblərə aydınlıq gətirdi. Atəşkəs imzalanandan sonra ölkə ictimaiyyəti birmənalı şəkildə Nikol Paşinyana qarşı çıxmalı idi. Ancaq belə olmadı. Keçirilən rəy sorğusunun nəticəsinə əsasən, respondentlərin 40 faizə yaxını hələ Paşinyana etibar etdiklərini bildirmişlər. Baş nazirin mitinqlərinə minlərlə insan gəlir.

Bu həm də Ermənistan cəmiyyətinin Robert Köçəryana və sələfi Serj Sarqsyana nifrətin göstəricisi sayıla bilər. Ölkə əhalisin xüsusi ilə az təminatlı hissəsi erməni xalqının qatili olan bu iki siyasətçidən bezdikləri üçün 2018-ci ilin aprelində hakimiyyət dəyişikliyində fəal iştirak etmişdi.

Robert Köçəryan müsahibəsində özünü ifşa edib. Məlum olub ki, "Vətənin xilası uğrunda hərəkat"ın "boz kardinalı" özüdür. Baş nazir postuna vahid namizəd saylan Vazgen Manukyan isə əldəqayırma fiqurdur.

O, bu "hərəkatı" tərifləyərək, onu dəstəklədiyini, hətta onların hədəflərini belə açıqlayıb. Bildirib ki, hərəkatın məqsədi Nikol Paşinyanın istefasına nail olmaqdır. Köçəryan növbədənkənar parlament seçkilərinin keçirilməsini tələb etmir. O, Paşinyanı istefaya göndərdikdən sonra onun yerinə gələrək 1998, 2003 və 2008-ci illərdə olduğu kimi özü seçkilər keçirmək istəyir.

Vazgen Manukyanı "təcrübəli siyasətçi" adlandıran Köçəryan onun seçkilərdə iştirak etməyəcəyini də vurğulayıb. Bununla da hərəkatın vahid namizədinin, əslində, özü olduğunu açıqlayıb.

O, Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının rəisi general-polkovnik Onik Qasparyan və 40-dan çox yüksək rütbəli hərbçinin Nikol Paşinyanı istefaya çağıran bəyanatını da dəstəkləyib. Keçmiş prezident Silahlı Qüvvələri hərbi çevrilişə təhrik etməkdən çəkinməyib. Koçaryan "hərbi çevrilişdən qorxmaq lazım deyil" deməklə bir daha hakimiyyət hərisi olduğunu, bunun üçün yenidən qan tökməkdən çəkinməyəcəyini bildirib.

Koçaryan müsahibəsində 2020-ci il noyabrın 10-da atəşkəslə bağlı imzalanan bəyanata "şübhə ilə yanaşdığını" söyləyib. O, bununla özünü "sərkərdə" kimi təqdim etməyə çalışır. Ancaq İkinci Qarabağ müharibəsində Azərbaycan Koçaryan və Sarqsyanın "sərkərdəliyi" dövründə qurulan ordunu şəxsi heyəti və texnikası ilə birlikdə darmadağın etdi.

Beləliklə, Robert Koçaryan barəsində başlayan cinayət işlərini bağlanmasına nail olmaq üçün Ermənistan əhalisini yenidən qırğına sürükləyir. Ölkəni düşdüyü vəziyyətdən çıxarmaq üçün heç bir proqramı olmayan keçmiş prezidentin bütün çıxışları yalnız qarşıdurmaya köklənib. Bu baxımdan, demək olar ki, Koçaryan Ermənistanı üçüncü qanlı hadisələrə sürükləyir.

*Sədrəddin İsmayılov*

# Etibar Məmmədov: "Biz sülh rejiminə keçməmişik, atəşkəs rejimindəyik"

**AMİP-in lideri Etbar Məmmədov Qarabağda davam edən proseslərlə bağlı fikirlərini açıqlayarkən bildirib ki, Azərbaycan Vətən müharibəsində böyük zəfər qazanıb, amma müharibə bitməyib. "Deməli, biz sülh rejiminə keçməmişik, atəşkəs rejimindəyik. 10 noyabrda bağlanan üçtərəfli saziş də müharibənin bitməsi haqda yox, atəşkəs haqqında sazişdir", deyə qeyd edən E.Məmmədova görə, müharibə o zaman bitir ki, düşmənlə sülh müqaviləsi imzalansın: "Nəticədə qarşı tərəf də artıq düşmənçilik rejimindən çıxıb sülh rejiminə keçsin. Sonra da istəsə, lap dostluq rejiminə də keçə bilər. Ancaq müharibə başa çatmadığına görə qarşıda növbəti mərhələ dayanır".**



### "Bu, ya danışıqlar - siyasi məcburetmə, ya da hərbi məcburetmə yolu ilə baş verməlidir"

Onun sözlərinə görə, həmin mərhələdə Qarabağın Rusiya sülhməramlılarının nəzarəti altında qalan əraziləri qanunsuz erməni silahlı birləşmələrindən təmizlənməli, Xocalı, Xankəndi başda olmaqla digər ərazilərimiz də tam şəkildə nəzarətimiz altına keçməlidir: "Bu, ya danışıqlar - siyasi məcburetmə, ya da hərbi məcburetmə yolu ilə baş verməlidir. Dövlət olaraq da biz hər iki variant üçün hazır olmalıyıq. Son 44 günlük savaşımız da göstərdi ki, nə qədər Azərbaycanın, ordumuzun əleyhinə təbliğat aparılsa da, ordumuz qəhrəman ordudur, əsgərlərimiz, zabitlərimiz igid və peşəkardırlar".

AMİP-in lideri qeyd edib ki, Milli Ordumuz lazımi səviyyədə idarəçilik nümunəsi də nümayiş etdirərək dünya çapında təqdir olunan böyük bir savaş əməliyyatı həyata keçirdi: "Bu da göstərir ki, ən azı, yaxın on ildə Güney Qafqazdakı heç bir ordu, o cümlədən Ermənistan ordusu Azərbaycan ordusu qarşısında dayana bilməz. Və lazım gələrsə, növbəti mərhələdə də Milli Ordumuzun gücündən istifadə oluna bilər. Bu da siyasi qərardan asılıdır. Ancaq belə məsələlərdə, nə qədər ürəyimiz yansa da, tələskənliyə də yol verməK olmaz. Çünki beynəlxalq situasiyanı və digər təhdidləri də nəzərə almalıyıq."

### "Azərbaycan Qarabağla bağlı hər cür ekstremal situasiyaya hazır olmalıdır"

Etibar Məmmədov hətta Rusiya sülhməramlılarının torpaqlarımızda olduğu müddətdə Ermənistanla növbəti genişmiqyaslı müharibənin baş verə biləcəyi ehtimalına da münasibətini bildirib və bu variantı da istisna etməyib.

"Hər şey ola bilər. Ona görə də Azərbaycan Qarabağla bağlı hər cür ekstremal situasiyaya hazır olmalıdır", deyən AMİP lideri həmin məqamın da həssas olduğunu qeyd edib. "Sadəcə, biz elə addımlar atmalıyıq ki, özümüzə əlavə düşmən, yaxud maneələr yaratmayaq. 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad olunması vəzifəsinin birinci mərhələsi yerinə yetirilib", bildirən Etibat Məmmədov sonda bildirib ki, ona görə də Azərbaycan dövlətinin hazırkı ilkin vəzifəsi azad edilmiş bütün torpaqlarda, xüsusən keçmiş Dağlıq Qarabağ ətrafında möhkəmlənmək, orada infrastrukturu bərpa etmək, keçmiş köçkünləri o torpaqlarda daimi məskunlaşdırmaqdan ibarətdir. "Ondan sonra digər məsələlər tədricən öz həllini tapacaq", partiya lideri deyib.

***Rövşən RƏSULOV***

## Paşinyan hakimiyyətinin ənənəsi: Ermənistanda günahkar axtarışı davam edir



Ermənistan hakimiyyəti Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) nümayəndəsi Marine Clark-Hatting-in səlahiyyətlərinə xitam verib. SİA kommersant.ru saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə işğalçı ölkənin Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Naqdalyan açıqlama verib.

Məlumatda qeyd olunur ki, Ermənistan XİN-in mətbuat katibi onun işindən rəsmi İrəvanın narazı olduğunu bildirib. Eyni zamanda, Ermənistan mediasında Marine Clark-Hattingin casusluq ittihamı ilə "persona non grata" elan edildiyi yazılır.

Diqqətə çatdıraq ki, UNICEF uşaq və yeniyetmələrin problemləri ilə məşğul olur. Fəaliyyətinin sahələri arasında, uşaqların yoxsulluğuna qarşı mübarizə, sağlamlıq imkanları məhdud uşaqlara dəstək, şiddətdən qorunma, fövqəladə vəziyyətlərdə və hərbi münaqişələrdə yardım və sair var.

"Erməni tərəfi üçün UNICEF nümayəndəsi Marine Clark-Hatting-in mandatı çərçivəsində fəaliyyət göstərməsindəki səhvləri və əməkdaşlıq prinsiplərinə cavab verməyən iş tərzi problemli idi. Nəticə olaraq, hökumət Clark-Hattingin UNICEF-in Ermənistan Respublikasındakı nümayəndəsi kimi fəaliyyətinə xitam verməsi barədə qərar verib", deyə Anna Naqdalyan bildirib.

Xatırladaq ki, bir qədər əvvəl Mediaport Telegram kanalı da UNICEF nümayəndəsinin Ermənistanda guya casusluq etdiyinə görə "persona non qrata" elan edildiyini bildirmişdi. Eyni zamanda, səlahiyyətlilərin bu faktı ictimaiyyətdən gizlətmək istədikləri də iddia edilir. Onu da qeyd edək ki, Clark-Hatting 2020-ci ilin iyulunda Ermənistanda işə başlayıb və cəmi səkkiz ay çalışıb.

Göründüyü kimi, Ermənistanda hazırda hər kəs barədə şübhə yaradılmasına çalışılır və bununla bir növ, diqqəti yayındırmaq niyyəti güdülür. Günahkar axtarışı isə Paşinyan hakimiyyətinin çoxdankı ənənəsidir. Daha doğrusu, hazırkı Ermənistan hakimiyyəti inqilab bəhanəsi ilə dövlət çevrilişi etdiyi ilk gündən bu vaxta qədər ölkələrində baş verənlərə görə günahı başqalarının üzərinə atmaq üçün hər vasitəyə əl atmaqdadırlar və cəmi səkkiz ay fəaliyyət göstərən UNİCEF nümayəndəsi də heç şübhəsiz ki, Paşinyan hakimiyyətinin hədəfinə çevrilib.

***İnam Hacıyev***

## Armenianreport: "Putinin pudeli hakimiyyətə can atır"

**"Koçaryan növbəti dəfə bizə sübut etdi ki, o, Rusiyanın adamı və marionetidir və Ermənistanda ali hakimiyyəti caynağına keçirmək üçün o, məhz Kremldən yardım almaq niyyətindədir". SİA xəbər verir ki, bu barədə armenianreport "Putinin pudeli hakimiyyətə can atır" sərlövhəli məqaləsində yazır.**



Erməni xəbər saytının analitik bölməsində Koçaryanın Rusiya KİV-ləri üçün keçirilən mətbuat konfransındakı fikirlərinə diqqət çəkilib və bildirilir ki, eks-prezident məhz həmin mətuat konfransında səsləndirdiyi səs-küylü bəyanatı ilə sözügedən niyyətini ortaya qoyub. SİTAT: "Əgər bugünə qədər kimsə müxalifətin və Baş qərargah qiyamının arxasından Koçaryanın qulaqlarının görünməsinə şübhə edirdisə, artıq indi bəllidir - ikinci prezident Paşinyanın yerinə iddialıdır. Özü də Rusiyanın və dostu Vadimir Putinin açıq dəstəyi ilə. Axı Koçaryanın mətbuat konfransına ermənilərin deyil, məhz rusların KİV-lərini dəvət etməsini başqa cür necə izah etmək olar?".

Armenianreort əlavə edir ki, əgər Koçaryan özünün seçkiqabağı proqramını erməni cəmiyyəti üçün açmaq niyyətində idisə, rusiyalı deyil, məhz erməni jurnalistləri qarşısında danışmalı idi. Bu vasitə ilə o, Rusiyanın dəstəyi ilə hakimiyyətə iddialı olduğunu təsdiq edib.

Saytın qeyd etdiyinə görə, Koçaryan danışarkən daha çox diqqəti Nikol Paşinyanı hakimiyyətə gətirmiş Soros fonduna tərəf çəkib və bununla Rusiyaya tərəf oynayıb. "Sorosun rəhbərlik etdiyi ideyalar və dəyərlər Ermənistanı özünüməhvə doğru aparır", deyə eks-prezident bildirib.

Daha bir maraqlı məqam isə Koçaryanın mətbuat konfransından sonra Kremlin verdiyi müəmmalı bəyanatıdır. "Mətbuat konfransından dərhal sonra Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov tələsik şəkildə bəyan etdi ki, Ermənistanın ikinci prezidenti Robert Koçaryan Rusiyaya dost siyasətçidir, ancaq o öz fəaliyyətini Moskva ilə razılaşdırmır.

"Əgər bu belədirsə, onda belə bir tələsik bəyanatı verməyə hansı gərək var idi?", deyə yazıda sual olunur.

Bununla yanaşı bildirilir ki, Moskva da bu oyunda Koçaryana tərəf oynayır. Məhz bu yanaşmadan da çıxış edən armenianreport Koçaryanın Ermənistanı hansı ağır vəziyyətə gətirib-çıxarması faktlarına toxunur. "Bizim gözlərimiz qarşısında Ermənistan necə nəhəng miqyaslı talana məruz qalırdı? Getmək vaxtı çatanda isə o öz yerini Sarqsyana verdi və o da Koçaryana toxunulmazlıq, erməni xalqının qanı üzərində talan etdiyi varının saxlanılması zəmanətini verdi. Bax indi bu cür insan qarşımızda yeni obrazda dayanmağa cəhd göstərir? Aldanmayın!"armenianreport yazır və xatırladır ki, 2018-ci ildə xalq Sarqsyan iqtidarını qovarkən eyni zamanda, Koçaryan siyasətinin də üzərindən xətlər çəkmişdi.

"İndi isə Koçaryan özünün mətbuat konfransında bizə açıqaydın olaraq anlatdı ki, hakimiyyətə yiyələnəcəyi halda, o, Ermənistanı Rusiyanın satelliti olma prosesini möhkəmləndirəcək. Ancaq o səhv edir...", deyə yazan erməni saytı daha bir maraqlı məqama da toxunur və qeyd edir ki, hətta yaxın vaxtlarda seçkilər keçirilərsə və Paşinyan yenidən seçilməzsə, bu zaman Koçaryan dəqiq şəkildə onu dəyişməyəcək. Onun yeri həbsxanadadır, erməni hakimiyyətinin yuxarı eşalonunda deyil...", adıçəkilən saytın analitik bölməsində bildirilir.

***R.Nurəddinoğlu***

## Teatrşünas siyasətçi rolunda...



"Ay ermənilər, nə yatmısınız, oyanın, yoxsa, Nikol Paşinyan sizin axırınıza çıxacaq". Bilirsiniz bu sözləri kim deyir: Sergey Ervandoviç Kurginyan. Bu adam Moskvada doğulub. Vaxtilə Boris Şukşin adına Teatr İnstitutunu bitirib, yəni olub teatrşünas. İndi aktyor kimi yaramır deyə, Solovyovun şousunda yer doldurur. Şounun əsas sima(sız)larından biri kimi "siyasətçilik" edir. Əslində, mən onu qınamıram da, çünki erməni hər yerdə elə ermənidir. Əgər onun qanında az da olsa erməni qanı varsa, deməli, o harada olmasından asılı olmayaraq, erməniliyini göstərəcək. Amma yenə də ürəyimdə, onun erməniliyi ilə bağlı bir xal qalır...

İndi Kurginyanın dediyinə görə, Paşinyan, Soros, Amerika və Böyük Britaniyanın agentidir. Ermənistanın siyahıda olmadığı Amerika-İngilis-Türk-Azərbaycan siyasi konsorsiumunun maraqlarının ardıcıl bir rəhbəridir. Maraqlıdır ki, Kurginyana görə, konsorsium Paşinyanı tamamən idarəedilən, əhəmiyyətsiz biri olduğu üçün Ermənistana rəhbər seçib. Paşinyanı çirkin bir məxluq kimi təqdim edən Kurginyan onun tərəfdarları tərəfindən böyüdülməsinin təkcə bir şeyə - "Qarabağı təslim etməyə" hesablandığını bildirir.

İnanın, Kurginyan burada, dediklərinin dəqiq olduğunu təsdiqləmək üçün, az qala atasının goruna belə and icmək istəyir. Amma nədənsə, bir az tərəddüd edir ki, bu da başqa yazı mövzusudur. Nə isə...

Beləliklə, erməni teatrşünasın fikrincə, bu gün erməni hakimiyyətində özünə yer eləyən Paşinyanı müdafiə edənlərin hamısı xarici xidmət orqanlarının agentləridirlər.

Mənim hesabımla, onda bu ermənilərin yarıdan çoxu agent imiş ki...

Nə isə, yenidən qayıdaq mənim, bu dəfə Moskvada rus kişilərinin əhatəsində doğulduğunu əsas gətirib erməniliyinə şübhə elədiyim Kurginyanın üzərinə. Kuryagin deyir ki, ay ermənilər, nə yatmısınız, oyanın, yoxsa, Nikol Paşinyan sizin atalarınıza elə od qoyacaq ki, lap cızdağınız çıxacaq. Bəs, nə etməli?

Nikolu dərhal hakimiyyətdən uzaqlaşdırmaq lazımdır. Mən bu yerdə Kurginyana sual erdirəm, yoldaş teatrşünas, bəs bu ermənilərin neçə vaxtdan bəri işə-gücə getməmələrinin əsas səbəbi nədir? Məgər onlar Paşinyanı yıxmaq üçün iki gündən bir toplantı keçirmirlərmi?

Bu yerdə Kurginyana bir sual da vermək istəyirəm ki, ay yarımçıq teatrşünas, necə olur, sənə ruslara yalmanıb "sukalıq" etmək olar, Nikola yox?

***Ağasəf Babayev***

# "Azad qadın" davası milli təhlükəsizlik kontekstində

*Son dövrlərdə cəmiyyətimizdə bəzi qüvvələr tərəfindən milli-mənəvi dəyərlərə qarşı hücumlar artıb. Bu hücumları təşkil edənlər əxlaqi kriteriyalara, mənəvi dəyərlərə qarşı təbliğat aparır, öz əxlaqını, vicdanını, namusunu- ailə dəyərlərini qoruyan insanlara geridəqalmış kimi baxırlar. Bunu konkret kimlər edir, Şərif demişkən "subutalni, dokumentalni" sizə deyə bilmərəm, amma necə və niyə edirlər, bu haqda bəzi mülahizələrim var.*

> "Azərbaycan öz milli-mənəvi kökləri üzərində inkişaf etməlidir, nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq"- İlham Əliyev

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

### Milli-mənəvi dəyərlər elmi-texniki inkişafa mane olurmu?

Avropa, Qərb dəyərləri adı altında bəzi beynəlxalq və yerli mərkəzlər tərəfindən bizə sürətlə və ardıcıl sırınan dəyərlərin mənəvi tərəfləri faciədir. Bu mənəvi deqradasiyanın Qərb cəmiyyətlərini hansı sosial-mənəvi nəticələrə gətirib çıxardığı haqda çoxsaylı faktlar və elə Qərb tədqiqatçılarının bu mövzuda ciddi əsərləri var.

Qloballaşma prosesində birtərəfli inteqrasiya ciddi problemlərə yol aça bilər. Bəzi dairələr bəzi Qərb ölkələrinin iqtisadi və texniki inkiafını əsas götürüb bizim də onların mənəvi dəyərlərini qəbul etməyimizə çağırırlar. Bunu çox vaxt maddi, texnoloji inkişafla bağlayıb deyirlər ki, görürsünüzmü, Qərb ölkələri mənəvi dəyərləri kənara qoyublar deyə necə inkişaf ediblər.

Lakin bir ağıllı çıxıb onlara Yaponiyanı nümunə göstərəndə boğazları quruyur. İndi necə izah etsinlər ki, yaponların timsalında bir xalq öz dəyərlərini, mədəniyyətini, dinini, ənənələrini, əxlaqını qoruyaraq da dünyanın ən inkişaf etmiş xalqına çevrilə bilir. Daha bir belə nümunə kimi Çini göstərmək olar. Tərslikdən də, Çin və Yaponiya Qərbdə yox, Şərqdə yerləşirlər. Deməli, elmi-texnoloji, sosial-iqtisadi inkişaf üşün heç də Qərbin mənəvi kriteriyalarını qəbul etmək vacib deyil. Beləliklə, Qərb dairələrindən ayrılan qrantlarla təşkil olunan "azad qadın" aksiyalarının nə məqsədə xidmət etdiyi aydındır. Qısası, bu arqumentə bir quş.

### İnsan hüquqları, yoxsa anarxik əxlaqi deqradasiya?

İkinci arqument insan hüquqları adı altında cəmiyyətimizə sırınan dəyərlərdir. Məsələn, qadın hüquqları, uşaq hüquqları, cinsi azlıqların hüquqları və s. Mən başa düşmürəm, bizim cəmiyyətdə qadınlar, uşaqlar, xəstələr kimsə tərəfindən əzilirmi? Psixi xəstələr tərəfindən edilən tək-tük kriminal hərəkətləri nəzərə almasaq, xeyr!

Kişilərin həmişə onlara diqqətlə, qayğıyla, fədakarlıqla yanaşdığını görmüşük. Azərbaycan qadını həm evinin, ailəsinin xanımı olub, həm də cəmiyyətə xeyirli ictimai fəaliyyət göstərib. Qadın azadlığı budur, indi kommersiya TV-lərində, seriallarda təbliğ olunanlar deyil. Məncə, bir xanımın elmi ixtiralar etməsi üçün onun 1 qarışlıq mini-yubkada gəzməsi və ya müxtəlif kişilərlə qeyri-qanuni münasibətlərdə olması tələb olunmur.

Bizim ailə institutumuzda və cəmiyyətimizdə qadının, qızın öz layiqli yeri var. Amerikalı və avropalıya azərbaycanlı kişinin öz anası, xanımı, bacısı, qızı uğrunda düşünmədən canını qurban verməsi bəlkə qəribə gələr, amma bizdə bu, müzakirəsi belə mümkün olmayan avtomatik reaksiya hesab olunur.

Bizdə uşaqlar döyülüb öldürülürmü? Xeyr! Sadəcə, valideyn bəzən tərbiyəsi pozulmasın deyə uşağına qulaqburması verir. Əks halda, həmin uşağın axırı hippiyə, emoya, ən yaxşı halda cinayətkara və ya narkomana çevrilər. Uşağını qorumaq, onun tərbiyəsinin pozulduğunu gördükdə cəzalandırmaq valideynin borcu və haqqıdır.




Məgər dövlət cinayət törədən vətəndaşı cəzalandırmırmı? Məgər bəzi qayda və qanunlar, tələblər havayı yeremi qoyulub? Məgər valideynin öz uşağını danlamağa, qulaqburması verməyə haqqı çatmamalıdır? Bəlkə 15 yaşlı qızcığaz gecə saat 3-də pritondan atasına zəng eləyib desin ki, mənim bəzi vacib işlərim var, özüm kefim istəyəndə evə gələcəm? Xeyr, bunlar hüquq deyil, anarxiyadır, mənəvi deqradasiyanın kulminasiyasıdır. Kəsəsi, bu arqumentə də bir quş.

### Cinsi azlıqların üstün hüquqları olmalıdır?

İndi isə keçək yad dəyərlərin təbliğatçılarının ən yaralı yerlərindən birinə- cinsi azlıqların hüquqları məsələsinə. Bizim cəmiyyətdə cinsi azlıq nümayəndəsi şallaqlanırmı, ya da ictimai yerlərdən qovulurmu? Xeyr! Sadəcə onlar cəmiyyətə nümunə göstərilib başa çıxarılmır. Onlara vəziyyətdən asılı olaraq ya xəstə kimi, ya da əxlaqi cəhətdən pozğun adam kimi baxırlar. Ən əsası, onlar digər vətəndaşların istifadə etdiyi bütün sosial və sair hüquqlardan yararlanırlar. Bəlkə onlara, eyni işə görə normal adamlardan az maaş verilir, bəlkə onlar əmlak, sosial təminat, əmək hüququ məsələlərində ayrı-seçkiliyə məruz qalırlar? Xeyr.

Yaxşı, bəs onda nə deyib bizim ailə institutumuzu dağıtmaq, cəmiyyət əxlaqını dəyişmək istəyirlər? Çətin sualdır. Bunu bu işlə ciddi məşğul olan şəbəkənin nümayəndələrindən soruşanda boğazları quruyur.

Dəyərlər dəyişib, dəyişir, dəyişəcək. Amma bu dəyişmə mütləq mənfi istiqamətdəmi olmalıdır? Müsbətə doğru dəyişmək olmazmı? Məgər mənəvi-əxlaqi dəyərlər maddi nemətlərdən istifadə, iqtisadi inkişaf, sosial ədalət, elmi-texniki tərəqqi üçün problem yaradır? Yuxarıdakı nümunələrdə gördüyümüz kimi, yaratmır!

Deməli, inkişaf üçün milli-mənəvi dəyərləri itirməyə, onu yad dəyərlərlə əvəzləməyə ehtiyac yoxdur. Hər mədəniyyətin özünün psixoloji-ruhi-mənəvi dəyərlər sistemi var. Elmi-texnoloji, sosial-iqtisadi inkişafın bura heç bir dəxli yoxdur. Olsaydı, konservativ Yaponiya və ideoloji Çin ilə rasional Amerika və novator Avropa arasında bu sahələrdə fərq olardı. Bəs onda nə baş verir? Əslində, nə baş verdiyi, necə baş verdiyi yox (bunlar məlumdur), niyə baş verdiyi müzakirə obyektidir.

Mənə şəxsən aydın deyil, inkişaf etmək üçün mənəvi dəyərləri yad mədəniyyətlərdənmi qəbul etməliyik, özümüzünkü yaramırmı? Yaramırsa, niyə misal üçün Sovet dövründə, həm dəyərlər qorunurdu, həm də ictimai, sosial, mədəni, elmi, texnoloji inkişaf gedirdi? Elə indi də, milli-mənəvi dəylərlərimiz elmi-texniki inkişafımıza heç bir problem yaratmır.

### Əxlaqsızlığın təbliğinə görə sərt cəzalanma olmalıdır

Ümumiyyətlə, ölkədə qadın alverinin, narkotikanın, digər zərərli və təhlükəli halların təbliği, hətta internetdə təhqir qadağandırsa, onda fahişəliyin təbliği də qanunla qadağan olunmalıdır. Mətbuat Şurası, Milli Teleradio Şurası mediada mənəvi dəyərlərə təcavüzə qarşı daha ciddi tədbir görməlidir. Bu, bir milli təhlükəsizliik məsələsidir. Necəmi?

Heç kəsə sirr deyil ki, MKİ (CİA) şefi Allen Dallesin SSRİ-yə qarşı "MƏHVETMƏ" planına bənzər doktrinalar hələ tam mənəvi deqradasiyaya uğramamış cəmiyyətlərə, o cümlədən Azərbaycana tətbiq edilir. Əxlaqsızlığın təbliği xüsusi qlobal mərkəzlər tərəfindən peşəkarcasına idarə və təşkil olunur.

Dallesin planından mövzumuza birbaşa aidiyyatı olan bəzi detallara nəzər salaq. "...Biz bütün gücümüzü insanların axmaqlaşdırılması və səfeh yerinə qoyulmasına yönəldəcəyik!

İnsan beynində xaos yaradaraq, onların dəyərlərini saxtalarıyla dəyişəcəyik və onları bu saxta dəyərlərə inanmağa məcbur edəcəyik. Necəmi? Biz orada öz həmfikirlərimizi, müttəfiqlərimizi tapacağıq.

Məsələn, incəsənət və ədəbiyyatdan tədricən onun sosial mahiyyətini çıxaracağıq... Ədəbiyyat, teatr, kino ən alçaq insani hissləri təsvir və mədh edəcək. Biz insanların şüuruna seks, zorakılıq, sadizm, satqınlıq kultunu, bir sözlə hər cür əxlaqsızlığı yeridən və yayan adamları dəstəkləyəcəyik...

Çox az adam nə baş verdiyini başa düşəcək. Lakin biz onları köməksiz vəziyyətə salacaq, gülüş obyektinə çevirəcəyik, onları şərləməyin və cəmiyyətin tör-töküntüsü adlandırmağın yolunu tapacağıq. Xalq əxlaqının əsaslarını təhrif edərək məhv edəcəyik.

...Biz bu yolla nəsli nəslin ardınca sarsıdacağıq. İnsanların üzərində uşaq, yeniyetmə yaşlarından işləyəcəyik, əsas stavkanı isə həmişə gənclərə edəcəyik- onları mənəviyyatca korlayacaq, onlardan həyasız, heyvərə və kosmopolitlər düzəldəcəyik. Biz bunu bax belə edəcəyik!". Məncə əlavə şərhə ehtiyac yoxdur...

### Milli-mənəvi dəyərlər üzərində inkişaf strategiyası

Dövlətimiz də milli-mənəvi ideoloji baza üzərində inkişaf siyasəti yürüdür. Bu siyasət milli-mənəvi dəyərləri qoruyaraq dünyaya inteqrasiya etməyi özündə ehtiva edir. Yazımı Prezident İlham Əliyevin bu məsələlərə həsr olunmuş çıxışından bir fraza ilə yekun vurmaq istərdim:

"Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq, bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd.

Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun...

Bəzi hallarda belə sözlər işlədilir ki, biz inteqrasiya etməliyik, Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, biz heç yerə inteqrasiya etməməliyik. Biz öz milli dəyərlərimiz üzərində möhkəm dövlət, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Xüsusilə, indiki ayrı-seçkilik, islamafobiya dövründə inteqrasiya etməyə heç bir ehtiyac yoxdur. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Bax, Azərbaycan belə inkişaf etməlidir... Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq...

**Elçin Bayramlı**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

10 mart

QARABAĞ AZƏRBAYCANDIR!

## Messi gələcəyi ilə bağlı qərarını verdi




"Barselona"nın futbolçusu Lionel Messi gələcəyi ilə bağlı qərar verib. İngiltərənin "Daily Mail" nəşrinin yazdığına görə, argentinalı hücumçu Kataloniya klubunda yeni prezident Joan Laportanın seçilməsindən sonra komandada qalmaq qərarına gəlib. Onun bu qərarı verməsində baş məşqçi Ronald Kumanla münasibətlərinin yaxşı olması da rol oynayıb. Bundan başqa, komandada 18 yaşlı Pedri, Ansu Fati, İlaiks Moriba kimi gənc oyunçuların gündən-günə daha da inkişaf etməsi Messinin razı salan digər faktordur. 33 yaşlı futbolçu gənc oyunçularla növbəti illərdə uğurlar qazanacağına inanır.

Bildirilib ki, 30 iyunadək 266 milyon avro borc ödəməli olan "Barselona"nın ümumi borcu 1.2 milyard avrodur. Klubun bu şərtlər altında Messiyə necə müqavilə təklif edəcəyi maraqlıdır. Bu yay müqaviləsi başa çatacaq kapitanın 39 milyon avro bonus almaq hüququ var. Ancaq o, rəhbərliyin işini asanlaşdırmaq üçün bu məbləğdən imtina etməyə hazırdır.

## Ukrayna klubunun futbolçusu Azərbaycan millisinə çağırılacaq?



**Ukraynanın "Mariupol" klubunun yarımmüdafiəçisi Eldar Quliyev Azərbaycan millisinə çağırıla bilər. Bu barədə Ukrayna mətbuatı məlumat yayıb. Bildirilib ki, AFFA əslən azərbaycanlı olan E.Quliyevi gənclərdən ibarət yığmaya çağırılması üçün milliləşdirmək niyyətindədir.**

Assosiasiya bununla bağlı 18 yaşlı oyunçuya dəvət göndərib və futbolçu fikirləşmək üçün vaxt istəyib. Qeyd edək ki, AFFA Ukraynanın digər klubu "Minay"ın futbolçuları Anatoli Nuriyev və Rüstəm Əhmədzadəni milliləşdirməyə çox yaxındır.

## Efir yağları sakitlik və rahatlıq mənbəyidir

**Efir yağları ilə müalicə insanın əhvalına müsbət təsir göstərməklə yanaşı immuniteti möhkəmləndirir. Həmin yağların tərkibində aktiv maddə olduğundan dəri üçün də xeyirlidir. Efir yağları ilə nəfəs aldıqda qoxu respiratorları qıcıqlanır, sakitləşmə və rahatlaşma baş verir.**

Həkim-fitoterapevt Elnur Eldaroğlu AZƏRTAC-a deyib: "Lavanda, səndəl, zəncəfil, nanə kimi efir yağları insanı sakitləşdirir, onu stress və depressiyadan uzaq edir. Nanə və ağ şam ağacının efir yağı baş ağrıları və miqrenlə mübarizədə yaxşı vasitədir. Həmin efir yağlarından 6-8 damcı 1 stəkan süddə qarışdıraraq həftədə iki dəfə 10-20 dəqiqə müddətində aroma vannaları qəbul etmək məsləhətdir".

Evkalipt, adaçayı, çay ağacı efir yağlarından qrip, angina, zökəm, bronxit və öskürək zamanı istifadə etmək olar. Portağal, limon, avokado, kakao və qızılgül efir yağları dərini cavanlaşdırır, daha sağlam və elastik edir. Badam, çobanyastığı efir yağları saçların vəziyyətini yaxşılaşdırır, onları daha canlı və parlaq edir. Badam yağı kipriklər üçün də çox xeyirlidir. Qreypfrut və portağal efir yağı arıqlamağa kömək edir, sellülitlə mübarizə aparır. Həmin yağlarla vannalar qəbul etmək və massaj etmək olar.





## Hövsan sakininin avtomobilindən qumbara götürülüb



**Hövsan qəsəbə sakini F.Lazımov Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qəsəbə ərazisində saxlanılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, onun idarə etdiyi "Saipa" markalı avtomobilə baxış zamanı "F-1" markalı qumbara, "UZRQM" tipli partlayıcı və oyuncaq tapança aşkarlanaraq götürülüb. Faktla bağlı rayon polis idarəsində araşdırma aparılır.

## PSJ - "Barselona" oyununu bu hakim idarə edəcək

Futbol üzrə UEFA Çempionlar Liqasının 1/8 finalında bu gün axşam keçiriləcək iki cavab oyununa hakim təyinatları açıqlanıb. Belə ki, PSJ - "Barselona" görüşü İngiltərə Futbol Federasiyasından Entoni Teylora tapşırılıb. Ona Qari Beşvik və Adam Nunn köməklik edəcək. Dördüncü hakim funksiyasını David Koote yerinə yetirəcək. "Liverpul" - "Leyptsiq" matçı isə Fransa Futbol Federasiyasından Klement Turpinə həvalə olunub. Nikolas Danos, Kuril Qrinqore köməkçik hakimlər, Frank Şneyder dördüncü hakim olacaq.

Qeyd edək ki, hər iki qarşılaşma Bakı vaxtı ilə saa 00:00-da başlayacaq.

## Qətər-Azərbaycan oyunu Macarıstanda keçiriləcək

Futbol üzrə dünya çempionatının seçmə mərhələsində müsabiqədənkənar iştirak edən Qətər milli komandasının martın 27-də Avstriyanın paytaxtı Vyanada Azərbaycan millisinə qarşı keçirməli olduğu oyunun məkanı dəyişdirilib. Belə ki, UEFA-dan AFFA-ya daxil olmuş məlumatda oyunun Macarıstanın Debretsen şəhərindəki "Nagyerdei" stadionunda keçiriləcəyi qeyd olunub. Qarşılaşma yerli vaxtla saat 18:00-da (Bakı vaxtı ilə saat 21:00) başlayacaq.




**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600